Bağışlayan və mehriban Allahın adı ilə

# Hüseyn qiyamı

Ayətullah Xamenei cənablarının 1982-ci və 1984-cü illərdə imam Hüseynin qiyam səbəbi mövzusu ilə bağlı iki çıxışının birləşdirilməsi.

# Ön söz

Ali dini liderin yüksək, incə və analitik bir məharətlə toxunduğu məqamlardan biri də İslam tarixidir. O, İslam tarixini qarış-qarış nəql etməyə bacarsa da, hadisələr barədə həmahəng, cəzbedici formada günün tələblərinə uyğun, tətbiqi və dəqiq analizlər təqdim edir. Onun İslam tarixi barədəki dərin bilgisi elə bir həddədir ki, "250 yaşlı insan" adı altında imamların bütün həyat dövrü barədə tarixi meta-analiz irəli sürür. İmamların həyatına holistik baxışla yanaşı, belə bir böyük strukturun hissələrində də xalis, dəqiq təhlil və nəzəriyyələr sahibidir.

Tarixin ən böyük qiyamının-həzrətimam Hüseynin (ə) qiyamının araşdırılması çoxsaylı İslamşünasların fərqli prizmalarla ələ aldıqları mövzulardan biridir. O cümlədən, "imam Hüseynin qiyamının səbəbi" elə bir mövzudur ki, xüsusilə, çağdaş dönəmimizdə böyük alimlərin zehnini məşğul edərək bu barədə müxtəlif nəzəriyyələrin ortaya çıxmasına gətirib çıxarmışdır.

Ali dini lider bir yerdə belə buyurur ki, imam Hüseynin hərəkatında hər birisi bir cəmiyyətin tərbiyə edilməsi üçün gərəkli olan 100-dən çox önəmli dərs sadalamaq olar. O, bu kimi dərslərin önəmli başlıqlarını şərh etmişdir:

Aşuranın qısamüddətli və uzunmüddətli qələbələri, o dövrdəki cəmiyyətin vəziyyəti, Aşura ibrətləri, zalım, məzlum və zülmə dözən adlı üçlü bölgü, Aşura mesajları, Hüseyn müsibətlərinin müsil yönləri, ümumi və xüsusi kütlələrin rolu, Hüseyn qiyami ilə Xomeyni inqilabının müqayisəsi, Aşuranın mənəvi və irfani təzahürləri, Kərbala şəhidlərinin dəyəri, Aşuranın qalıcı olmasının sirri və s. bu kimi dərsləri Ali dini liderin çıxışlarının başlıqları hesab olunur ki, bunları da bir nitq şəklində təqdim etmək olar. Ali dini lider buyurur ki, bütün o dərslər bir yana, ortada elə bir əsas dərs var ki, yerdə qalan bütün dərslər ona baxanda, haşiyə, onun özü isə mətn hesab olunur: "İmam Hüseyn nə üçün qiyam etdi?"

Ali dini liderin mövcud çıxışları içərisində imam Hüseynin qiyamının səbəbini geniş şəkildə araşdıran ilkin nümunə 1982-ci ilə təsadüf edir. Həmin çıxışda vurğulayır ki, biz bu bəhsi İnqilabdan əvvəlki boğanaq dövrdə dastan və təmsil şəklində bəyan edirdik.

Onun, imam Hüseynin qiyam səbəbi barədəki təhlili aydın, əsaslı, məntiqli, dəqiq və tətbiqi olduğundan, “Hüseyn qiyamı” başlıqlı mövzu “Səhba” adlı nitqlər silsiləsinin beşinci nitqində yer aldı. Ali dini liderin bu çıxışından əlavə, uyğun mövzu ilə əlaqədar olaraq 1984 və 1995-ci illərə təsadüf edən iki mühüm çıxışı da vardır. 1995-ci ildəki çıxışı “250 illik insan” adlı kitabında yer almışdır. Buna görə, digər iki çıxış əsasında yeni bir məhsul istehsal edilməsi qərarı alındı. 1982-ci ildəki çıxışına gəlincə, o, izah və təhlil baxımından daha güclü hesab olunur, o biri çıxış isə nümunə və tarixi hekayələr baxımından güclü idi.

Qeyd olunan hər iki çıxışın məzmunu eyni olsa da, mətləblər daha az təkrarlanıb. Hər iki çıxışı ayrıca oxumaq olar, amma onlardakı mövzunun ümumi məntiqi axarını nəzərə alaraq belə qərara gəlindi ki, hər iki çıxış bir-biri ilə sintez edilərək bir hissəli çıxış kimi hazırlansın, belə ki, mövzu ilə uyğun olaraq bir çıxışdan o biri çıxışa keçərək mövzunu orada da izləyə bilək.

Belə bir üslub üçün “müqarənə” sözü seçildi. “Müqarənə” Ərəb dili lüğət kitablarında müxtəlif mənalar ifadə edir. Məsələn, “muntəhəl-Ərəb fi luğətil-Ərəb” kitabında bu sözün mənası belə qeyd olunub: “İki xurmanı bir-birinin üzərinə qoymaqla mil düzəltmək”. Hədisdə qeyd olunduğu kimi, xurma ən bərəkətli ilahi nemətlərdən biri olub, həm yemək üzərinə qoyulan qaradır, həm də düyü. Buna görə də, adıkeçən nitqi hazırlamaq üçün məhz həmin sözdən istifadə olundu.[1]

29.06.1982-ci ildə söylənən birinci nitq boz rənglə yazılmış və 12.10.1984-cü ildə söylənmiş ikinci nitq qara rənglə yazılmışdı.

Şifahi nitqin mətnləşdirilmə prosesindəki lazımi dəyişikliklər istisna olmaqla, adıkeçən mətnlərə heç bir əlavə artırılmamış və bəyanatların özü çapa verilmişdi. Qeyd edək ki, Ali dini liderin bəyanatlarında bu kimi dəyişikliklər olduqca cüzidir. Kitabdakı mətləblərin məzmun baxımından uyğunluğunu qorumaq məqsədi ilə olduqca məhdud verlərdə mövzunun məntiqi axari ilə birbaşa əlaqəsi olmayan mətləblər, qeyd olunan üslub əsasında təkrar olduğundan silinmişdir ki, bu da mətndə(...) əlaməti il

1 - “Sahba” adlı nitqlar silsiləsindən üçüncü nitq: “İslam ziyalılığı cərəyarı”.

göstərilmişdir.

Əgər «əleyhissəlam» ifadəsi və ya ona bənzər bir ifadə çıxışda mövcuddursa, onda eynilə deyildiyi qaydada yazılmışdı. Əgər məsumların adı «həzrət» və «imam» kimi ləqəblər olmadan deyilibsə, onda(ə) əlaməti və ya buna bənzər bir ifadədən istifadə edilmişdi.

Təqribən, Ali dini lider harada imam Hüseynin qiyam səbəbinə toxunursa, orada İslam inqilabına da işarə edir. Məsələn, "Bizim millətimiz imam Hüseyn işi gördü və öz dövrünün Hüseyni əziz və hörmətli İmamın ardınca hərəkət etdi.", "İnqilabın qələbəsi ilə mömin və ixlaslı müsəlmanların fəsad törədən rejimlər qarşısındakı min illik arzuları həyata keçdi." və "Biz hələ də mübarizənin bitdiyini düşünmürük. Biz hələ də öz cəmiyyətimizdə Hüseyn hərəkatının sona çatdığını hesab etmirik". Elə isə indi də, Ağa- İran İslam hakimiyyətinin rəhbəri zəmanə yezidçilərinin qarşısında durub İslamın yenidən dirçəldilməsi və tamamilə İslam rejiminin qurulması məqsədi ilə başlanan hərəkatı vəd edilən sona çatdırmaq üçün vəfalı, sadiq, ixlaslı, candan keçən, itaətkar və bir sözlə, aşuraçı dostlar istəyir. İnşallah!

Məhərrəm:1436, Oktyabr: 2014

# Hüseyn qiyamı

بسم الله الرحمن الرحيم

السَّلَامُ عَلَيْكُم وَرَحْمَهُ الله

الحَمدُ للهِ رَبِّ العالمين، الحَمدُ لِلَّهِ عَلَى نِعَمِهِ كُلِّهَا وَالحَمدُ لِلَّهِ بِمَحامِدِهِ كلها، أَحَمدُهُ وَاسْتَعينُهُ وَاسْتَغْفِرُهُ وَ أَتَوَكَّلْ عَلَيْهِ وَأَصَلَّى وَأُسَلِّمُ عَلَى حَبِيبِهِ وَنَجِيبِهِ وَخِيَرَتِهِ فِي خَلْقِهِ، حَافِظ سِرِّهِ وَ مُبَلِّغ رَسَالَاتِهِ، بَشِيرِ رَحْمَتِهِ ونذيرِ نِعْمَتِهِ، سَيِّدِنَا وَنَبِيِّنَا أَبِي القَاسِمِ مُحَمَّد وَعَلَى أَهْلِ بَيْتِهِ الطَّيِّبِينَ الطاهرين المعصومين، سيما بقيه الله في الأَرْضِينَ وَعَلَى أَئِمَّةِ المُسامِينَ وحماة المُستضعَفينَ وَهُداةِ المُؤمِنِينَ . قال الله الحكيم في كتابه: «وَ جَعَلْناهُم أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوحينا إليهم فعل الخيراتِ وَإِقَامَ الصَّلاةِ وايتاء الزكاة وكانوا لنا عابدين[2]

Məhərrəm ayının tarixi və xatirəli günləri münasibəti ilə yaxşı olardı ki, bugünkü bəhsimizi həzrət imam Hüseynin (ə) unudulmaz və tarixi qiyamına həsr edib, tarixin bu müstəsna hadisəsi barədə bir qədər müzakirə aparaq, elə bir hadisə ki, bu günə qədər dünyada nə ondan əvvəl, nə də ondan sonra heç bir hadisənin yarada bilmədiyi əzəmət və təsiri həyata keçirə bilmişdir. Həqiqət odur ki, hələ də bu böyük və fövqəladə hadisənin bütün yönləri, cəhətləri dünyadakı insanlar üçün aydınlaşdırılmayıb. Müsəlmanlar üçün də eyni vəziyyət davam etməkdədir. Hətta bizim öz millətimizə də bu hadisə tam və aydın bir şəkildə tanıtdırılmayıb, elə bir millət ki, Hüseynlə tanınır və Hüseyn ibn Əlini anmaq, Aşura və Məhərrəmlik onun ənənələri sırasına daxildir. Baxmayaraq ki, Həmd olsun Allaha, insanların agahlığı, xüsusən də, son illərdəki inqilab hərəkatı nəticəsində bu son 20 ildə Aşura barədə yeni və önəmli söhbətlər oldu. Mütəfəkkirlər, alimlər, yazarlar və bu hadisə barədə dərindən düşünən kəslər elə mətləblər söylədilər ki, bu hadisəni olduqca çox aydınlaşdıra bildilər. Ancaq hələ də müzakirə və bəhs üçün yer var.

Aşura hadisəsindən 1340 ildən çox keçməsinə baxmayaraq, bizim tariximizdə və ola bilsin, bəşəriyyətin tarixində bu hadisə hələ də fədakarlıqla, qan ilə imzasını atan ən böyük və ən mənalı hadisələr sırasına daxildir. Ola

2 - Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik. Biz onları xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər. (Ənbiya: 73)

bilsin, bizim tariximizdə Aşura hadisəsindən sonra insani hədəf və ideallara malik ola-ola ondan örnək almayan daha az qanlı hadisə, qiyam və hərəkat tapmaq olsun. Baş verdiyi an dalğa yaradan və zaman keçdikdə yaratdığı dalğası zəifləməkdə olan bütün hadisələrə əks olaraq, Aşura hadisəsi baş verdiyi zamandan etibarən ildən-ilə, dövrdən-dövrə dalğası daha da çoxalaraq hər bir yeri əhatə edə bilmişdir.

Bizim üçün burada əhəmiyyət kəsb edən məsələ odur ki, biz bu hadisənin, hərəkatın və qiyamın mənasını, məzmununu düzgün başa düşə bilək. Çünki biz haqlı olaraq hesab edirik ki, bizim inqilabımız bu hadisədən ilham almış və onun vasitəsi ilə istiqamətlənmişdir. İmam Xomeyni belə buyururdu ki, məhərrəmlik qanın qılınca qələbə çaldığı aydır. İmam Xomeyninin bu mətləbi buyurduğu həmin məhərrəmlik ayı, <məhərrəmlik» taleləri dəyişən tarixi bir rol oynadı. Bu deyim və bu həqiqət bir mədəniyyətdən qaynaqlanırdı: həqiqət o idi ki, biz öz inqilabımızı Aşura hadisəsinin bərəkət və sıçrayışlarından hesab edirdik.

İnqilabımızdan sonra da, qlobal güclər və təxribatçı siyasətlər qarşısında biz öz davranışlarımızı şəhidlərin sərvəri imam Hüseynin qiyamından ilham aldıq. Bizim cavanlarımız Hüseyn eşqi ilə, Hüseyn xatirəsi ilə döyüş meydanlarında iştirak etdilər və bizim inqilabımız bu kimi çətinliklərlə, problemlərlə bu günə qədər gəlib çıxa bilmişdir. Bundan sonra da, inşallah, irəliyə doğru davam edəcəkdir. Deməli, biz bu hadisəni düzgün şəkildə başa düşməliyik.

Kərbəla hadisəsini iki cür izah etmək olar. Birincisi hadisələrin izahı ilə bağlıdır. Hadisələrin izahı bir çox mesajları üzə çıxardır. İmam Hüseyn Həsən ibn Əlidən sonraki on illik uzun müddətli acı dolu həyatı dövründə necə həyat sürdü, necə davrandı, nə kimi məktublar ona yazıldı, o həzrət nə kimi cavablar verdi, Yezid hakimiyyətə gəldikdən sonra, ona qarşı nə kimi reaksiya verdi, Mədinədən hərəkət etdikdən sonra Mədinənin özündə hansı hadisələr baş verdi, Məkkədən çıxdıqda dayandığı hər bir mənzildə nə kimi olaylar baş verdi. Bu, Aşura hadisəsini bir cür izah etməkdir. Adətən də, bu cür izah olunur və bu, özündə bir çox mesajları ehtiva edir. Bu kimi hadisələr izah edilməlidirsə, onda geniş şəkildə, təfsilatı ilə bəyan olunmalıdır. Biz isə bu məsələyə təfsilatı ilə daxil olmaq niyyətində deyilik.

İkincisi isə Kərbəla hadisəsindən əldə olunan nəticə ilə bağlıdır, yəni bütün bu nitqlərin, hadisələrin toplusundan anlaya bilək ki, şəhidlərin sərvəri imam Hüseyn nə üçün qiyam etmişdir. Mən bu gün ikinci formada danışmağa üstünlük verməк istərdim. Əlbəttə, bu ikinci formada təfsilatı ilə danışmaq istəsək, 2-3 saat vaxtımızı alacaqdır. Ancaq indi, 45 dəqiqə və ya ən çoxu, bir saat ərzində mövzunu yekunlaşdırmağa çalışacağam.

Əvvəl, bir müqəddimə deyim və daha sonra Kərbəla hadisəsi anlayışına keçək. İslam və ilahi şəriətlər baxımından hakimiyyətə dair çoxsaylı yığıncaqlarda, bir neçə cümə xütbələrində bacı və qardaşların diqqətinə çatdırdığım kimi[3], ilahi dinlərə görə, hakimiyyətin mahiyyəti dünyagirlərin, hegemonçuların və istismarçıların anladığı hakimiyyətdən fərqlidir. Dünyagirlər hakimiyyəti insanlara mütləq hakim olma və öz nəfsani istəklərini təmin etmə anlamında başa düşürlər. Fərqi yoxdur, istər tədbirli, ləyaqətli və qeyrətli olan hakimlər olsun, hansı ki, onların adı tarixdə yaxşılıqla, yəni qüdrət və əzəmətlə anılır və ya hətta səhvən ədalətli kimi tanınırlar. İstərsə də qüdrət, kişilik və iqtidarla tanınmayan padşahlar olsun, hansı ki, tez təsirə məruz qalır və zamanın çətinlikləri, hücumları qarşısında təslim olurdular. Bütün bunlar bu nöqtədə şərik idilər ki, insanlar üzərindəki hakimiyyəti öz rahatlıq, işrət və həzlərini təmin edən vasitəyə çevirmişdilər və çevirirdilər. Bu gün də dünyada vəziyyət eyni cür davam etmədədir: Hakimiyyət əldə edən adam rahat və nemət dolu bir həyata çatdığını düşünür. Dünya müstəvisində istisnaları çıxmaq şərti ilə bəlkə də, təxminən demək olar ki, vəziyyət eyni cürdür.

Ancaq dinlərin mədəniyyətində və o cümlədən, İslamda hakimiyyət vacib bir əməl, bir vəzifə, çətin, təhlükəli və məhrumiyyətlərlə dolu bir məsuliyyət deməkdir. Həm də ən ağır ictimai vəzifə yükünü qaldırmaq deməkdir. Məsələ o deyil ki, hakimiyyət əldə edən kəs özü üçün nə isə istəsin, Allah qullarını öz qüdrət caynağında əsir eləsin və ya əsir olmalarını istəsin, Allahın malını nemətlə dolu öz süfrəsinə qoyaraq ondan istifadə eləsin. Xeyr, məsələ bu deyil. Elə buna görə də, bütün dünya iqtidarlarının dilində <<səltənət», «padşahlıq» adlanan şey İslamın dilində ona «imamət», «xilafət», «vilayət» və «insanların işlərini öhdəyə alma» deyilir. Hətta hakimiyyətin adında «vəzifəyə dəlalət də vardır. İslam peyğəmbə-

3 - Bu cümə namazı xütbələrinin silsiləsi «Vilayət və Hakimiyyət» adlı kitabda çap edilmişdi.

rinin ictimai sistem və insanların həyatı sahəsində meydana gətirdiyi ən böyük hərəkat ondan ibarət idi ki, insanları tağutun hakimiyyətindən xilas edib ilahi rəhbərliyin çətiri altında onları Allahın bəndəsi etsin.

الدعاء الي طاعة الله عز وجل من طاعة العباد والي عبادة الله من عبادة العباد [4]

Bir hədisdə imam Baqirdən (ə) nəql olunduğu kimi, Peyğəmbər(s) insanları, özləri Allahın bəndəsi olan və başqalarını yersiz olaraq qul kimi götürən kəslərin qulu olmasından xilas edib onları insan üçün ən yüksək azadlıq, izzət, əzəmət hesab olunan ilahi rəhbərlik çətiri altına apardı.

Böyük ilahi peyğəmbərlər, o cümlədən, bizim əziz peyğəmbərimiz göndərilən zaman, əslində, onlar insan üçün yeni bir həyat gətirirdilər və öz həyatlarında ilahi qüdrət əldə etdikləri təqdirdə həmin həyatla bağlı lazım olan bütün yönləri tətbiq etmələrini istəyirdilər. Əgər kimsə ilahi peyğəmbərlərin təkcə insanlara nəsihət vermək üçün gəldiklərini düşünərsə, səhvə yol vermişdir. Peyğəmbərlər insanlara təkcə nəsihət, dərs vermək və onların düşüncə səviyyəsini yüksəltmək üçün gəlməmişdilər. Bu, ilahi peyğəmbərlərin işlərindən biridir, məsuliyyətlərinin bir hissəsidir. Peyğəmbərlərin əsas məmuriyyəti cəmiyyəti islah etmək və bu yeni dünyanı ilahi qanunlar əsasında formalaşdırmaqdan ibarətdir.

Peyğəmbərlərin mübarizəsi də məhz bundan qaynaqlanırdı. Əgər onlar təkcə nəsihət üçün göndərilsəydilər, onda onlara qarşı çoxlu mübarizə aparılmazdı. Bildiyiniz kimi, ilahi peyğəmbərlər nə qədər şəhid olub, nə qədər həyatın ağrı və acılarına məruz qalıblar, nə qədər öz dövrlərindəki hakimlərlə, padşahlarla mübarizə aparıblar. Bütün bunlar deyilən məsələyə görə idi, çünki peyğəmbərlər hakimiyyət və qüdrəti zamanın qəsbkar hakimlərinin caynağından çıxarıb elə bir dünya qurmaq istəyirdilər ki, bu yeni dünyada ilahi hökmlər və ilahi maariflər hakim olmuş olsun. Odur ki, peyğəmbərlər öz zamanlarındakı hakimlərlə döyüşür və onlarla mübarizəyə sövq edilirdi. Quranda deyildiyi kimi:

وَكَأَيِّن مِن نَبِيٍّ قَاتَلَ مَعَهُ رِبِّيُونَ كَثِيرٌ [5]

«Neçə-neçə peyğəmbər bir yığın allahpərəstlə (Allah adamı ilə) birlikdə (düşmənə qarşı) vuruşmuşlar. Hədisdə də var ki, peyğəmbərlər içərisində əlinə ilk qılınc alıb döyüşən kəs həzrət İbrahim olmuşdur.

---

4 - Al-Kafi, kitabul-Cihad, bab fazl al-Cihad, hadis: 4.

5 - Ali Imran: 146.

Təəssüflər olsun ki, bu peyğəmbərlərin tarixi bizə gəlib çatmayıb. Bizə çatan təhrif olmuş tarixdir və onun böyük hissəsi ya Tövratdan naqis şəkildə nəql olunmuş, ya da dildən-dilə nəql olunan və doğruluğu məlum olmayan rəvayətlərdir. Tarixi rəvayətlərin bir hissəsi də Əhli-beytdən yetişən mötəbər hədislərdir, amma onlar peyğəmbərlərin həyatını ətraflı şəkildə işıqlandırmır.

Hədislərin birində deyilir ki:

أَوَّلُ مَن قاتل في سبيل الله إبراهيم [6]

- ilk dəfə Allah yolunda döyüşən İbrahim peyğəmbərdir. Döyüşləri barədə eşitdiyimiz Musa, Süleyman, Davud və digər peyğəmbərlərdən öncə döyüşən həzrət İbrahim olmuşdur. Lut peyğəmbərdə -deyilənə görə, həzrət İbrahimin bacısı oğlu olub - onun sərkərdələrindən biri olmuşdur. Nəql olunur ki, həzrət İbrahim Luta döyüşməsi üçün Allahın adı ilə olan bayrağı vermişdir.

Bizim Peyğəmbərin(s) də döyüşlərə və düşmənçiliyə sövq edilməsi bu səbəbdən dolayı idi. Əks təqdirdə, Peyğəmbər(s) Məkkədə olduğu zaman ancaq insanlara nəsihət etməklə məşğul olsaydı, onunla heç kəsin işi olmazdı. O, "Ey camaat! Allahdan qeyrisinə ibadət etməyin, zülm etməyin,"- desəydi belə, insanların ona qulaq asmasına baxmayaraq, yenə zülm edib Allahdan qeyrisinə ibadət etməyə davam edərdilər. İranda zalım şahın dövründə də bir çoxları nəsihət edib əxlaqdan danışırdılar, amma bu söhbətlərdən nə zalım şah, nə də zalımlar narahat olurdular və bunu özlərinə təhlükə hesab etmirdilər. Onlar nə zaman təhlükənin fərqinə vardılar? O zaman ki, mövcud rejimin rəhbər və nökərlərinin zalım olduğu, rejimin batilliyi və onun dəyişilməsinin gerçəkliyi deyilir. Belə rejimin dəyişilməsi nə deməkdir? Bu, zalımların getməsi, onların cibinə işləyən maddi və mənəvi kanalların bağlanması deməkdir. Köhnə rejimin getməsi və yeni hakimiyyətin iş başına gəlməsi elə bu deməkdir. Əgər bu kimi təbliğatlar və bu haqda söhbətlər olarsa, o zaman zalımlar özlərinə qarşı təhlükənin olduğunu hiss edər və məhz elə bu zaman döyüşə əl atarlar.

Eyni ssenari bizim inqilabda da baş verdi. Bildiyiniz kimi, zalım şah rejiminin qorxusu daha çox imam Xomeyni və onun hərəkatına görə idi. Niyə? Çünki zahirdə mübarizə aparan digər cərəyanlar bir başa şahın və onun

---

6 - Biharul-ənvar, kitabun-nubuvvə, əbvabı qisasi ibrahim, -3cü bab, -Ici hədis

zalım rejiminin əleyhinə danışmırdılar, danışdıqları isə ancaq dövlətin konkret olaraq bir məsələsi barədə olardı. Şah rejimi imam Xomeyni və onun ardıcıllarının və bu böyük dini, milli hərəkatın hədəfini şahın əleyhinə olduğunu görəndə, onlara qarşı başqalarından daha çox həssaslıq göstərirdilər-qıcıqlanırdılar. Bu real gerçək həm o vaxt, həm də bu gün dünyanın bir çox yerlərində baş verir.

Bura kimi söylədiklərimiz bir giriş olaraq yadınızda qalması lazım idi. Deməli, peyğəmbərlər öz gəlişləri ilə yeni dünya qururlar. Eynilə bizim İslam peyğəmbərimizin(s) gəlişi və yeni dünya qurması kimi. Peyğəmbərin(s) qurduğu yeni dünyanın hökuməti zalım dünyanın hökumətindən fərqlidir. Həmin dövrdə dünyanın heç bir yerində peyğəmbərin qurduğu hökumətin bənzəri yox idi. Nə belə bir hökumətin özü, nə hakimin şərtləri, nə də hakimlə camaatın əlaqəsi dünyada var idi. Peyğəmbərin(s) qurduğu hakimiyyət bir formada, dünyada mövcud olan quruluşlar isə tam başqa bir formada idi. Məsələn, dünyada olan iqtisadiyyat, pul dövriyyəsi, müamilələr, daşınmaz əmlak, kapital və bu kimi dövlətçiliyə aid işlərdə müxtəlif üsullar mövcud idi və dövlət həmən üsullarla idarə olunurdu. Sosial münasibətlər və ictimai əlaqələr- bütün bunları müqayisə edəndə onlardan heç biri Peyğəmbərin(s) idarəçiliyinə və qurduğu dövlətə bənzəmir. Peyğəmbər belə bir yeni dünya yarada bilmişdir.

Peyğəmbər(s) qurduğu cəmiyyətin bütün ölçülərini müəyyən edib insanlara çatdırdı və özü də onlara əməl etdi. Elə bir söz yox idi ki, Peyğəmbər insanlara deyib özü ona əməl etməmiş olsun. Əgər insanlara namaz qılın deyirdisə, özü hamıdan əvvəl namaz qılırdı, «Zəkat verin!» deyirdisə, özü hamıdan qabaq zəkat verirdi, «Xeyriyyəçilik edin!» dedikdə, özünün və başqaların yardımlarını lazım olan yerlərə çatdırardı, «Cihad edin!» dedikdə, cihadın nümunəsi və müəllimi özü idi. Bir sözlə, Peyğəmbər(s) vasitəsi ilə bəyan olan İslam sistemi o həzrətin və onun qurduğu cəmiyyətin əməllərində həyata keçirdi. Peyğəmbər(s) öz gətirdiyi sistemi praktikada və təcrübədə insanlara göstərirdi.

İslam sistemindəki Peyğəmbərin gətirdiyi hökmlərdən təkcə bir hökm olub ki, onu bəyan etməsinə baxmayaraq, özü ona əməl etməyib. Bu hökm isə İslam sisteminin əsas prinsiplərindən biridir. Fərz etsək ki, Peyğəmbə-

rin qurduğu dövlətdə 10 və ya 12 lazımı prinsip olubsa, onlardan biri də o həzrətin əməl etmədiyi həmin prinsipdir. Hərçənd, Peyğəmbər o hökmün təfərrüatını, xüsusiyyətlərini bəyan etmişdir, amma özü həmin prinsipinə əməl etməmişdir, çünki Peyğəmbərin ona əməl etməsi mümkün deyildi.

O, hansı hökmdür? Bu hökm İslam cəmiyyətinin, dövlət sisteminin öz xəttindən çıxacağı və mahiyyəti dəyişəcəyi təqdirdə, müsəlmanların vəzifəsindən ibarətdir. Hər hansı bir dövlət gəlib maddi, mənəvi, iqtisadi v. s bu kimi xüsusiyyətləri müəyyən edərək onun əsasında cəmiyyət qurarsa, amma cəmiyyət həmin siyasi xətdən çıxarsa və ya qüdrət sahibləri, zalımlar, təcavüzkarlar zahiri strukturu saxlamaqla cəmiyyəti əsl məzmun və mahiyyətdən ayırsalar və yaxud hər ikisini dəyişsələr, bu zaman vəzifə nədir? Nə edək? Bu suala veriləcək cavab hökmlərdən biri olacaq. Əgər İslamı gətirən bütün dini hökmləri bəyan edərək bu xüsusiyyəti qeyd etməsə, bu zaman onun işi naqis hesab olar. Əlbəttə, Peyğəmbər(s) bu hökmü bəyan etmiş və İslam dövlətinin öz siyasi xəttindən çıxarsa, islam cəmiyyəti qüdrət sahibləri, diktatorlar, münafiqlər vasitəsilə yolunu dəyişərsə, onda müsəlmanların nə etməli olduqlarını bildirmişdir. Amma O həzrətın özü bu hökmə əməl etməmişdir, çünki onun sağlığında belə bir sapqınlıq baş verməmişdir.

Bu məsələ təkcə Peyğəmbərin (s) canişinləri dövründə baş verə bilərdi. Canişinlər İslam cəmiyyətinin azması, İslam anlayışlarının təhrifə məruz qalması və ya bütövlükdə dəyişməsi ilə rastlaşdıqda həmən vəzifəyə əməl etməli idilər. Canişinlərdən biri bunu etməlidir və artıq onun kimliyi fərq etmir. Fərq isə təkcə Peyğəmbərdən(s) sonra olan canişinlərin (imamların) hansı birinin belə bir şəraitə düşməsindən ibarətdir.

Peyğəmbərdən(s) sonra İslam dövlətinin təməl prinsipləri yaşadılırdı. Hərçənd, toqquşmalar baş verib, insan üçün şərəfli olan ilahi hakimiyyətin sütunlarına zərbə dəysə də. Müsəlmanlar fəthlərə və bir sıra məsələlərə görə mal, dünya, sərvət və eyş-işrətlə məşğul oldular. Bu vəziyyət isə imam Əlinin (ə) gəlişi ilə dəyişilərək yenidən ilahi hakimiyyət yeniləndi. İslam hakimi həzrət Əli(ə) insanlara qarşı qürurlanmaq, təkəbbür və fironluq etmək əvəzinə, adi siravi vətəndaşla bərabər hüquqa malik idi və yaşayış baxımından da insanlardan daha kasıb yaşayardı, hətta Peyğəmbərin(s)

dövründə həzrəti Əli(ə) kimi davamlı olaraq özünə kasıb və çətin yaşayışı seçən olmayıb.

Bəli, həzrət Əli(ə) belə yol seçmişdi. Bunu ona görə etmişdi ki, cəmiyyəti zadəganlıq çirkabından, tədricən qərq olduqları zalımların həyat tərzindən və camaata yenidən qayıdan cahiliyyət bəlasından nicat versin. Həzrət Əli(ə) Peyğəmbərin dövründə müsəlmanların yaşadığı əhval-ruhiyyəni qaytara bilmişdi. Amma həzrət Əlinin (ə) şəhadətindən sonra bütün ictimai təzahürlər, hadisələr Peyğəmbər və canişinlərinin qorxudub çəkindirdiyi yola yönəldilər, yəni yenidən diktatorların, zadəganların, nəfsani meyllərin, dövlət başçısına və ali hakimiyyətə yaxın, tanınmış şəxslərin, cahillərin hökuməti iş başına gəldi. Elə bir hakimiyyət növü ki, həzrət Əli(ə) özünün xilafət dövründə onlar barədə xəbərdarlıq etmişdi. O həzrət belə burmuşdu:

الا وَإِنَّ بَلِيَّتَكُم قد عادَت كَهَيْئَتِهَا يَومَ بَعَثَ اللَّهُ نَبِيَّهُ

"Bilin ki, sizin sınağınız Allahın öz peyğəmbərini(s) göndərdiyi dövrdə olduğu kimidir."[7]

O dövrlərdə mövcud olan siyasi istibdad ilkin xəlifələr-Raşidi xəlifələr dövründə olmayıb. Xilafətin ilkin dövrlərində insanlar sözünü deməkdə, etiraz etməkdə, xəlifənin minbərdə söhbət etdiyi zaman ayağa qalxmaqda azad idilər. Cahiliyyətə doğru getməkdə olan hərəkata etiraz edənlər müəyyən çətinliklərlə üzləşirdilər. Misal üçün, Əbuzərin Rəbəzəyə sürgün edilmsəi və Əmmarın xəlifə hüzurunda döyülməsi kimi. Amma çətinlik bundan artıq olmazdı. Həqiqi möminlərin və peyğəmbər səhabələrinin ifadə azadlığı və nəfəs alma haqları var idi- öz sözlərini deyə bilirdilər. Əgər siyasi hərəkat cahiliyyət dəyərlərinə və tağutun dövrünə yönəlmiş olardısa, bu zaman onlar insanları bu yoldan çəkindirə bilirdilər. Amma Əmirəlmöminin(ə) şəhadətindən sonra siyasi istibdad, repressiyalar hamıya hakim kəsildi və nəfəs almağa belə qüdrətləri çatmırdı.

Qələm sahiblərinin Əmirəlmöminin(ə) şəhadətindən sonra gələn dövrün tarixi barədə bəyanları o zamanın camaatına, xüsusən də xalis müsəlman və möminlərə qarşı baş vermiş olayları bildirən acı müsibətlər

7 - Nahcül-bəlağə/16-cı xütbə.

məktublardadır. İnsan bunları oxuyanda, heyrətlənir ki, necə ola bilər, Peyğəmbərin(s) vəfatından yarım əsr keçməmiş, İslamın cavan, təzə dövrlərində insanların təzə müsəlman olduğu və hələ də yeni şəhərlərin islama üz tutduğu bir zamanda İslamın prinsipləri bu cür dəyişilə və hər şey əvəz ola bilərdi. Əbuzər peyğəmbərin(s) belə buyurduğun nəql edir: إذا بلغ آل أبي العاص ثلاثين «Əbülas ailəsi -٣٠a çatdığı zaman». Bəni-Üməyyənin əsas qolundan sayılan Əbülas ailəsi (Mərvanilər) təxminən ٥٠ il İslam aləminə hakim oldular. Mərvan ibn Həkəmdən tutmuş Bəni Üməyyənin axırıncı xəlifəsi Mərvan ibn Himara qədər. Bunların sayı -٣٠a çatanda Əbuzərin Peyğəmbərdən(s) nəql etdiyi hədisin davamında deyilir ki, اتَّخَذُوا مال الله، دولاً وعباد اللهِ خَوْلاً وَدِينَ اللهِ دَخَلاً

"Allahın malını əldən-ələ dolaşan bir sərvətə çevirdilər, bəndələrini zəlil etdilər və dinini isə dəyişdirdilər".

İmam Hüseynin(ə) bütün mübarizəsi, qiyamı məhz İslam dünyasının belə bir bəlaya düşdüyünə görə idi. İmam Hüseynin (ə) qiyamından qabaq İslam və müsəlmanların içərisinə düşdüyü bəla və onların ən böyük çətinliyi hədisdə qeyd olunduğu kimi üç məsələdə öz əksini tapmışdır və bu hədis tağut hökuməti ilə ilahi hökumət arasındakı əsas fərqi adıkeçən məsələdə bəyan etmişdir.

Birincisi məsələ mal ilə əlaqədardır: Zalım və tağut hökuməti Allahın malını yerin sərvətlərini, beytul-malı, ümumi gəlirləri, insanlar arasında bölünməsi vacib olan, hamının faydalanması üçün olan imkanları mənimsəyib xüsusiləşdirirlər. Onlar bu sərvətləri ümumi hesab edib məhrum təbəqəni o mala ortaq bilmir və zənginləri, zadəganları, qüdrət sahiblərini ümumi maldan uzaqlaşdırmaqdansa, əksinə, məhrumları, fəqirləri və gücsüzləri Allahın malından məhrum edərək onu özünə aid edib təkcə özü və süfrəsinin ətrafındakı itləri ondan istifadə edir. اتخذوا مال الله دولاً "Allahın malını əldən-ələ dolaşan bir sərvətə çevirdilər"-cümləsi tağut hakimiyyətin xüsusiyyətlərindən birini ifadə edir. Bu xüsusiyyət isə ilahi hakimiyyətin tam tərsinədir. Belə ki, ilahi hakimiyyət Allahın malını Allaha və Onun qullarına aid olduğunu bilir və onu ən gücsüz Allah qullarına verir. Yoxsullar və məhrumları zəngin, zadəgan və qüdrət sahiblərindən imtiyazlı hesab edir, özünü isə cəmiyyətin ən aşağı təbəqəsi və ən məhrum insanları ilə

eyni tutur. Əmirəlmömininin (ə) hakimiyyəti belə bir hakimiyyət idi. Siz bilirsiniz ki, Əmirəlmömininin(ə) necə yeyir və necə geyinirdi. O, bunu elə bir tərzdə edirdi ki, o zaman İslam dünyasında ondan çətin yeyib, geyinən adam yox idi.

Bu, Ali Əbülasın, yəni Bəni Üməyyənin bir qolundan sayılan, uzun illər hakimiyyət edən və Peyğəmbərin (ə) onların hakimiyyətindən və hakimlərindən xəbər verən kimsələrin hakimiyyəti ilə imam Hüseyn və Əli ibn Əbutalibin istədiyi hakimiyyət arasındakı fərqdir.

İkinci məsələ isə وَعِبا اللهِ خَوَلاً bəndələrini zəlil etdilər"- cümləsi ilə əlaqədardır. Tağut hökumətlərinin başqa xüsusiyyəti Allah qullarını zəlil etməkdən ibarətdir. »خول« Yəni onları öz nökərləri hesab edirlər.

Ola bilsin, "İnsanlar bizim kölələrimizdir" sözünü dillərinə gətirməsinlər, ancaq əslində onları özlərinə kölə hesab edirlər. Bu da İslamın ilkin əsirlərində Bəni Üməyyə və Bəni Abbas hökumətlərində formalaşaraq artmaqda idi. Müaviyənin zamanından etibarən başlayaraq Yezidin dövründə də davam edib Mərvan və Əbdulməlikin vaxtında öz pik nöqtəsinə çatmışdır. Onlar həqiqətən də insanları öz nökərləri, kölələri hesab edirdilər. Əlbəttə, əvvəllər bunu dillərinə gətirmirdilər, ancaq sonralar on illər keçdikcə üçüncü əsrin əvvəli və ya ikinci əsrin axırlarında məşhur ərəb yazıçılardan sayılan Cahiz öz kitablarında bunu təsdiq edərək bildirir ki, insanların hamısı əmirəlmöminin köləsidirlər. Burada "əmirəlmömin" adını həmən fasiq, eyş-işrətlə yaşayan xəlifəyə deyirdilər. Cahiz deyirdi ki, o, ağa və mövladır والناس عبيد له insanlar isə onun qullarıdır. Deməli, bu, elə bir təfəkkürdür ki, İslamın ilkin sapqınlığında və İslam hakimiyyətinin xəttində əyrilik baş verərkən əmələ gəlmişdir. وَعِبادَ اللهِ خَوْلًا Allah bəndələrini, insanları özlərinə kölə etmək, camaata qarşı hörmət göstərməmək, haqlarını, seçki hüquqlarını tanımamaq bütün bunlar tağut hökumətinin digər xüsusiyyətlərindəndir. Seçmək lazım gələrsə, xəlifə istədiyini və ya iş başında olan qüdrət sahiblərinin istədiyini seçməlidirlər. Burada insanlar seçməlidir, seçməyə də məcburdurlar. İnsanlar barədə qavradıqları belə idi.

Üçüncü məsələyə gəldikdə, bu ودين الله دَخَلًا "Dinini isə dəyişdirdilər"- cümləsi ilə əlaqədardır. Allah dinini əl oyuncağına çevirdilər, Allah dinini

ilə istədikləri hər işi etdilər. Bu mənanı hədisdə keçən «دخلاً» kəlməsi ifadə edir. Lazım olanda özlərini itaətkar göstərər, insanları özlərinə çəkmək, onları inandırmaq üçün İslamın, Quranın adını çəkər və onlarla birgə namaz qılarlar. Bəzən də lazım olarsa, İslam hökmlərini şəxsi və ya ictimai həyatları üçün və yaxud başqa bir iş üçün, bir hökm, döyüş və ya sülh üçün asanlıqla ayaq altına salar və istədikləri kimi İslamdan istifadə edərlər. Əslində, İslam onları hidayət etmir, onlara proqram vermir, əksinə, onlar istədikləri və bəyəndikləri şəkildə İslamdan faydalanırlar. Dinə qarşı oxşar rəftarı biz Bəni Üməyyə və Bəni Abbas xəlifələrində də aydın şəkildə müşahidə edirik. Kim kitablarda birinci və ikinci əsirlərdə baş verən təəssüfləndiriçi qara günləri oxusa, Peyğəmbərin(s) Ali Əbülasın barəsindəki دين الله دخلا "Dinini isə dəyişdirdilər" cümləsində nədən xəbər vermək istədiyini yaxşı başa düşər. Ürəkləri istədiyi hər işi etdilər- hədislər qondardılar, bəzi ayələri oxumağa qadağa qoydular, onların təfsirinə mane oldular, insanlara "Filan ayəni oxumalı və filan cür anlamalısınız!" dedilər. Bir sözlə, necə lazım idi və nəyə ehtiyac duyurdularsa onu da edirdilər. Bir qisim də din sahibləri kimi əlləri sinələrində, muzdurlar, xilafətin yağlı və yumşaq süfrəsində əyləşənlər, faydalananlar, Allah dinini unudanlar- bütün bunlar xilafətin meylinə uyğun əməl edərdilər.

Əbuzər Ğəffarinin Peyğəmbərdən(s) nəql etdiyi üç məsələ bunlar idi: «اتَّخذوا مال الله دولاً» " Allahın malını əldən-ələ dolaşan bir sərvətə çevirdilər, «وعِبادَ اللهِ خَوْلاً» bəndələrini zəlil etdilər» «ودينَ اللهِ دَخَلاً» və «dinini isə dəyişdirdilər».

Peyğəmbərin buyurduğu kimi də oldu: Ali Əbülas hakimiyyətdə bəlkə də otuz nəfərə çatmamış bütün bu problemlər İslam dünyasında baş verdi. O İslam dünyası ki, ilahi hakimiyyət imamət əsasında olmalı idi. Elə bir imamət ki, Allah-taala onun barəsində belə buyurmuşdu: يهدون بأمرنا [8] Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik. Namaz qılmağı, zəkat verməyi və xeyirli işlər görməyi əmr edib pis əməlləri qadağan edirlər. Belə bir imamət məhz tağut səltənəti ilə dəyişdirilmişdi. Ən pis insanların zatında olan çirkinliklər belə tağut hökumətinin soltanlarında görmək olurdu, bildiklərinin hamısını edərdilər, bilmədiklərini isə keçmiş İran, Rom padşahlarından öyrənib əməl edərdilər. Belə bir vəziy-

8 - Ənbiya-73

yət əmələ gəlmişdi.

Belə bir vəziyyətdə nə etmək lazımdır? Bu böyük sual tarixin qarşısında durmuşdu. Bu bilinməyən ilahi hökm o vaxtın İslam dünyası və bütün İslam nəsli qarşısında durmuşdu. Elə bir sual ki, İslam toplumu belə bir vəziyyətlə qarşılaşdığı təqdirdə, nə etməli idi?

Öhdəlikləri nədən ibarət olmalı idi? Əmirəlmöminin hakimiyyəti və iqtidarda olarkən daşıdığı öhdəlik belə bir vəziyyətin qarşısını almaq idi. Buna görə də o, döyüşürdü. Əli həyatda ikən, kimsə aşkarda günah və pozğunluq etməzdi, Qurana əsaslanardılar. Əmirəlmömininin şəhadətindən sonra, imam Həsən həmən yolu davam etdirdi. Davam edərək elə bir yerə çatdı ki, artıq, Əli ibn Əbutalibin yolunun mümkün olmadığını gördü. Çünki Əmirəlmöminin qüvvələri çox idi və onlar döyüşməyə hazır idilər. Həmən qüvvələr imam Həsənin ixtiyarında yox idi. Beş ildən sonra döyüşməyə hazır deyildilər. Bundan əlavə, Əmirəlmöminin cəmiyyəti bir yerə toplamaq və səfərbər etmək bacarığı imam Həsənin dövründə Müaviyənin əldə etdiyi nüfuzun nəticəsində artıq zəifləmişdi. Məhz buna görə, imam Həsən yolunu dəyişməyə məcbur olmuşdu. Hərçənd, ana xətt və hədəf eyni olsa da, taktika fərqli idi. Mən imam Həsənin(ə) həyatı və sülhü barəsində əvvəllər söhbət etmişəm. Əgər fürsət olsa, bu barədə danışsam, aydınlıq gətirərəm ki, imam Həsənin(ə) dövründə ən yaxşı, ən gözəl və ən güclü addım insanlar qəflətdə olduğu, Tağut hakimiyyətinin mahiyyəti onlara məlum olmadığı və başlarına hansı müsibətlərin gələcəyini bilmədikləri vaxtda belə bir şəraitdə ən yaxşı və uğurlu addım imam Həsənin (ə) həyata keçirdiyi, yəni Müaviyyə ilə sülh bağlaması idi. Bu sülh atəşkəs demək idi və taktiki bir hərəkət idi. O vaxtın zirək adamları bilirdi ki, imam Həsən münasib bir zəminin yaranması üçün fürsət axtarmaqdadır. 10 il müddətində imam Həsən Müctəba münasib zəminin yaradılması uğrunda çoxsaylı cəhd göstərdi və iş o yerə çatdı ki, imam Həsəni(ə) zəhərlədilər.

Daha sonra növbə imam Hüseynə(ə) çatdı. İmam Hüseyn də imam Həsənin yolunu davam etdirdi. İmam Hüseyn(ə) 10 il müddətində həmin yolu davam etdirdi, şəffaflıq gətirdi, danışdı, təbliğat apardı, yaxın əshabələrinə tövsiyə etdi, şiə cəmiyyətlərini birləşdirdi, fəqihləri, alimləri və rolu

ola bilənləri öz vəzifələri ilə tanış etdi, ancaq bunları etməsinə baxmayaraq, Müaviyə həyatda ikən bir iş edə bilməzdi, çünki Müaviyənin sıx nəzarəti var idi və o, sağ olarkən imam Hüseynin bir iş görməsini ümid etmək olmazdı. Hicrətin 60-cı ilində Müaviyə ölür və ölərkən lazım olan zəminə yaranır, yəni artıq camaat hazır idi, zehinlər hazırlanmışdı və hər şey də deyilmişdi.

Digər tərəfdən, Müaviyənin şəxsiyyəti ilə Yezidin şəxsiyyəti müqayisə edilə bilən deyildi. Müaviyə Peyğəmbəri(s) görmüşdü, zahiri müsəlmançılığı onda görürdülər, Peyğəmbərlə qohumluğu bəzilərini ona doğru cəzb etmişdi. Bu deyilənlərdən əlavə, Müaviyə zahirdə İslamın ziddinə hərəkət etmirdi. Bu və ya digər səbəblərə görə, tanınmış idi. Müaviyə və onun qardaşı Şamı fəth etdikdən sonra, elə oradaca məskunlaşmışdılar. Şam onların hakimiyyətinin mərkəzi idi. Amma Yezid bu kimi xüsusiyyətlərə malik deyildi. Yezidin İslam dünyasında heç bir avtoritetliyi yox idi və əksinə, şərabxor, fasiq və günahkar insan idi. Yezid o kəs idi ki, İslam dünyasında Hüseyn ibn Əli(ə) kimi bir şəxsiyyət ona qarşı müxalifət bayrağını qaldıraraq, “Mən Yezid kimisi ilə beyət etmərəm”-dedi, çünki Yezid buna layiq deyil. Bu hadisə isə bir hərəkət, oyanış yaradır. İslam dünyasını dirildib İslam hakimiyyətini yenidən qurmaqla tağutu ilahi və İslami imamətlə dəyişmək məqsədi ilə imam Hüseyn hərəkət edir və camaatı da hərəkətə gətirir. Belə bir zəmin yaranır və imam Hüseynin(ə) rolu müəyyənləşir.

Əlbəttə, bunu da qeyd etməliyəm ki, tarixin bu zaman kəsiyində imam Hüseynin yerində əziz imamlarımızdan(a) kim olsa idi, eyni işi görərdi. Əgər həmin vəziyyət imam Həsənin, imam Səccadın, imam Sadiqin, imam Nəqinin, imam Həsən Əskərinin və digər imamların yaşadığı dövrdə baş versəydi, böyük şəhid, İslamın Seyyidüş-şühədası məhz həmin imam olardı. Ancaq belə bir vəziyyət məhz imam Hüseynin yaşadığı dövrdə baş verdi. Bunu da Allah-tala əvvəlcədən öz peyğəmbərinə xəbər vermişdi və İslam peyğəmbəri də bunu başqalarına söyləmişdi.

İndi isə gəlin qayıdaq əvvəlki sualımıza: Bu öhdəlik nədən ibarət idi? Elə bir öhdəlik ki, Peyğəmbəri-əkrəm göstəriş vermişdi, Allahın elmində məlum idi, İslam sisteminin o elementi ki, sistem öz düz xəttindən yayındırılarkən ona əməl olunmalı idi. Bu element nə idi? Peyğəmbərin təyin

və imam Hüseyninsə əməl etdiyi öhdəlik hansı idi?

Sözügedən öhdəliyin nədən ibarət olduğu və imam Hüseynin hərəkatının təhlili barədə müxtəlif nəzəriyyələr var. Çoxları çox söz deyib, həm qədim, həm də müasir alimlər fikir yürüdüblər. Son illərdə iki əsas təhlil irəli sürülüb ki, fikrimcə, onların heç biri doğru deyil və imam Hüseynin (ə) hərəkatın izah edən üçüncü bir nəzəriyyə də var. Birinci görüşün ardıcılları hesab edirlər ki, Hüseyn ibn Əli(ə) hakimiyyəti ələ almaq məqsədi ilə qiyam etdi. İmam Hüseynin (ə) qiyamı ancaq hakimiyyəti əldə etməkdən ötəri idi, yalnız buna görə idi. Çünki Yezidin fasiq olduğunu, İslam cəmiyyətini ciddi təhlükəyə atdığını gördükdə imam hakimiyyəti ələ almaq üçün qiyam etdi. Bunun üçün canlı qüvvə, silah-sursat da hazırladı (bu kimi başqa sözlər də deyillər), sonra Küfədə qiyam etmək məqsədi ilə oranı azad etmək, qüvvələrini orda toplamaq və mərkəzi dövlətə hücum etmək üçün ora gəldi, amma bunun mümkün olmadığını və yolda olarkən Küfəlilərin bundan daşındığını görəndə imam da öz fikrindən döndü və dedi ki, məni ya Yəmənə buraxın gedim, ya da gəldiyim yerə qayıtmağa imkan verin. Bu, qeyd olunan iki nəzəriyyədən birincisidir. Onu da qeyd edim ki, bu nəzəriyyənin müdafiəçiləri öz müddəalarını isbatlamaq üçün müəyyən faktlara əsaslansalar da, ümumilikdə, bu görüş məqbul deyil.

İkinci nəzəriyyəyə gəlincə, onu müdafiə edənlər məsələyə səthi yanaşaraq deyillər ki, ümumiyyətlə, Hüseyn ibn Əlinin heç vaxt hökumət etmək və hakimiyyəti ələ keçirib müsəlmanlara başçılıq etmək niyyəti olmayıb. O sadəcə olaraq ölmək istəyirdi, ölmək üçün də qiyam etdi. Çünki həyatda qalmaqla üzərindəki ilahi öhdəliyi yerinə yetirə bilmədiyini görüb bunu öz ölümü ilə edə biləcəyini düşündü. İndiki həyatda qalmaqla əlimizdən bir iş gəlmir, onda heç olmasa ölməklə bu işi yerinə yetirək. Bu da ikinci nəzəriyyədir. Bu nəzəriyyəyə görə, Hüseyn ibn Əli(ə) əvvəldən, elə Mədinədən yola düşərkən daimi niyyəti gedib ölmək idi və bundan başqa bir niyyəti yox idi.

Məkkəyə gələndə də məqsədi bu idi. Ölmək üçün necə və nə cür həssas, yaxşı məqam seçməyə plan cızıb tədbir görürdü. Bu da ikinci rəydir Bu rəy də doğru deyil.

Əslində, Hüseyn ibn Əli nə hakimiyyət üçün, nə də ölmək üçün getmişdi.

Burada qısa olaraq bunu yadınızda saxlayın ki, sonradan təfsilatı ilə izah verəcəm-deyə bilərəm ki, ölmək və ya hakimiyyəti ələ keçirmək Hüseyn ibn Əlinin məqsədi olmayıb, əksinə, bunlar Hüseyn ibn Əlinin hərəkatının nəticəsi olub. İkisindən biri Hüseyn ibn Əlinin hərəkatının qaçılmaz nəticə idi. Belə ki, imam Hüseyn bu yolda ya hakimiyyəti ələ keçirəcəkdi, ya da öldürələçəkdi. Bunu həzrət özü də bilirdi. Əlbəttə, biz bilirik ki, imam Hüseyn özünün öldürüləçəyindən xəbərdar idi[9], amma imam Hüseynin başladığı hərəkat təbii şəkildə bu iki nəticədən biri ilə sonuclanacaqdı. İki nəticədən biri öldürülmək, o biri isə hakimiyyəti əldə etmək idi, ancaq nə öldürülmək, nə də hakimiyyəti ələ keçirmək- bunlardan heç birisi imam Hüseynin hədəfi olmayıb. “İmam Hüseynin hədəfi nə idi?” sualına cavab ondan ibarətdir ki, hədəf qiyamın özü olub, yəni müqavimətin özünü yaratmaq, müqaviməti bildirmək, elan etmək olub. Əgər həmin müqavimət və hərəkat hökumətin qurulması ilə nəticələnsəydi, nə gözəl olardı, imam Hüseyn hərəkət edib, qiyam edib, hökumət qurub dünyanı abad edərdi, gülüstan edərdi, peyğəmbər hakimiyyətini davam etdirərdi və əgər hökumət qura bilməsəydi, onda işin sonu ölümlə, şəhadətlə nəticələnəcəkdi və imam Hüseyn də bunu qəbul edəcəkdi, çünki hədəfi, yəni hərəkatın özü müqavimət baş vermiş olurdu.

Beləliklə, adıkeçən üçüncü nəzəriyyəyə əsasən imam Hüseynin hədəfində nə ölmək, nə də hakimiyyət qurmaq adlı bir şeyin olduğunu qəbul edirik. İmam Hüseynin hədəfi hərəkatın baş verməsindən ibarət idi.

Hərəkatın özünün baş verməsi o dövrün və habelə tarix boyu dünyay gələcək müsəlmanlar üçün bir nümunə idi. Bu hərəkat İslam hakimiyyətində mövcud boşluqları doldururdu. Bu, Peyğəmbərin(s) təlim verdiyi idi. O buyurmuşdu ki, dünyanın viran olduğunu, İslamın fəsada bulaşdırıldığını gördükdə hərəkata keçib qiyam edin. Bunu peyğəmbər buyurmuşdu, amma təbii ki, özü bu əməli, ilahi göstərişi yerinə yetirə bilməzdi. Çünki həzrətin öz dövründə belə bir vəziyyət, yəni sapqınlıq baş verməmişdi. Həmin ilahi göstəriş gərək yerinə yetiriləydi. Peyğəmbər(s) namazı, zəkatı, həcci, cihadı həm öyrətmişdi, həm də özü yerinə yetirmişdi, amma o ilahi göstərişi canişinlərindən biri həyata keçirib insanlara da öyrətməli idi. İmam Hüseyn məhz bunu etdi.

9 - Bunu qeyb elmi olaraq Peyğəmbərimiz(s) xəbər vermişdi.

Qısa olaraq sözüm ondan ibarətdir ki, Hüseyn ibn Əlinin hədəfi hərəkatın özünü başlatması və hərəkatın nəticəsində bəşəriyyətin, habelə o dövrün və tarix boyu müsəlmanların belə bir oxşar vəziyyət qarşısındakı öhdəliklərinin nədən ibarət olduğunu bilmələri idi. Zülm hakimiyyətdə olarsa, küfr hökm edərsə, İslam quruluşu fəsada doğru sürüklənərsə, sapqınlıq baş verərsə və bu qatar xəttindən çıxarsa, o zaman öhdəliyin nədən ibarət olduğunu bilsinlər.

İmam Hüseynin hədəfi ən çətin və ən ağır şəraitdə ilahi öhdəliyi həyata keçirmək idi. İnsanlara və tarixə mesaj verdi, bütün nəsillərə öyrətdi ki, belə vəziyyətdə bu cür hərəkət etmək lazımdır. Bunu öyrətmək istəyirdi, hərəkatı, qiyamı və çətin mübarizəni tarixə başa salırdı. Hüseyn ibn Əlinin tarixdə əbədiləşməsinin sirri də məhz budur (ilahi göstərişi həyata keçirməkdir).

Əlbəttə, bu hərəkatın iki nəticəsi olacaqdı: birincisi öldürülmək, ikincisi isə qalib gəlmək idi və üçüncü yolu yox idi. İnsan hərəkət edib iqtidar gücə qarşı mübarizə aparanda, tarixdə bəzən olduğu kimi, ya zəfər çalıb hakimiyyət quracaq-Bəni Abbasın dövründə bəzi Ələvilərin qiyamçı hərəkatında belə oldu. Belə ki, onlar hakimiyyət qurub necə illər mütəmadi olaraq hökmranlıq etdilər, ya da hərəkətinin sonu şəhadətlə nəticələnəcək. Fərqi yoxdur: önəmli olan nəticə deyil, əməlin özüdür, hərəkət lazımdır. Bu mesajı millətimiz dərk etmişdi. “İnqilab Aşuranı bizə başa saldı, Hüseyn qiyamını bizə açıqladı” sözümüzün mənası o deməkdir ki, biz qiyamı anlamırdıq, hiss etmirdik, amma inqilabda millətimiz onu başa düşüb dərk etdi. Bizə hakim olan vəziyyətin, tağut hakimiyyətin müqabilində öhdəliyimizin nədən ibarət olduğunu başa düşdük. İlahi öhdəlik insanların hərəkət etməsi idi. Belə də oldu: insanlar hərəkət də etdi, qiyama da qalxdı. Allahın lütfü sayəsində millətimizə nəsib olan “iki yaxşı işdən (zəfər çalmaqdan və şəhid olmaqdan) biri”[10] baş verdi. O iş baş verdi ki, imam Hüseynə(ə) nəsib olsaydı, dünyanın tarixi dəyişilərdi, dünyada zülm ən azı uzun müddət boyu kəsilərdi, dünyaya ədalət kölgə salardı, İslam dünyaya yayılardı, amma təəssüflər ki, bu, baş vermədi və Hüseyn ibn Əli(ə) şəhadətə çatdı. Nəql olunduğu kimi, imam Hüseyn (ə) Allahin ،اشتَدَّ غَضَبُ اللهِ تَعَالَی عَلَی أهل الأرض sahid olanda qəzəbi yer əhlinin

10 - Tövba-52

günahkar və nankor insanlarına elə şiddətləndi ki, yeni bir hərəkatın baş verməsini öz müqəddəratında müəyyən müddətə qədər təxirə saldı. Bu məsələ imamların(ə) həyatı barədə maraqlı və şirin müzakirə obyektlərindən biridir. Belə ki, haqqın batilin əleyhinə qiyamını, imamət əsasında dövlətin təşkil olunmasını bəzi hədislərdə hicrətin 70-ci və 140-c1 illərinə proqnozlaşdırılmışdı.

Deməli, imam Hüseynin məsələsi bu idi. İmam Hüseyn hərəkatı insanlara öyrətmək üçün hərəkət etdi və imam Hüseynin mesajı da aydın idi. Xoşbəxtlikdən, Hüseyn qiyamı bizimlə danışan bir dilə sahibdir.

Bu günə kimi tarixdə bizə qalan imam Hüseynin (ə) dostları, düşmənləri, bitərəflərlə, təəssübkeşlərlə, həmrahlarla və boyun qaçıranlarla, bir sözlə, hamı ilə söhbət etmədədir. İmam Hüseyn onlarla danışıb öz məqsədini onlara açıqlamışdı. Mən bu sözlərin bəzilərini sizə oxuyum, siz də diqqət edin, görün bu sözlər necə Aşura hadisəsini şərh edir.

Müaviyə dünyasını dəyişəndə və qabaqcadan Yezidi öz canişini seçəndə əlbəttə, Müaviyə Yezidi canişin seçmək istədiyi zaman da, Hüseyn ibn Əli müxalifətçilik etdi- Vəlid ibn Ütbə imam Hüseynə Darulimarəyə gəlmək üçün xəbər yolladı. Həzrət məsciddə Mədinənin tanınmış şəxsiyyətlərinə belə dedi: “Ehtimal verirəm ki, Müaviyə öldüyünə görə bizi beyətə hazırlıq üçün dəvət edirlər”. Ona görə, həzrət tam hazırlıqlı Darulimarəyə yola düşdü. Mövzu orada doğurdan da Yezidin canişinliyi idi. İmamı məhz beyət almaq üçün çağırmışdılar. Vəlid ibn Ütbə Hicazın hakimi idi və Mədinədə otururdu. Mərvan ibn Həkəm həzrətin beyət etməsini tələb etdi, imam isə məsələni təxirə salmaq niyyətində olduğundan buyurdu ki, sabaha qalsın, görək nə edirik və əgər beyət etsəm, bunu təklikdə yox, cəmiyyət içində edəcəm. İmam çıxmaq istəyəndə Mərvan ibn Həkəm Vəlid ibn Ütbəyə işarə etdi ki, sən Hüseynin getməsinə icazə verəcəksən? Çünki Hüseyn getsə, daha axırıncı gedişi olacaq və birdə belə bir fürsət ələ düşməyəcək. Odur ki, yaxşısı, elə buradaca təzyiq göstərib ondan beyət alasan. İmam bunu eşidib Mərvana tərəf yaxınlaşaraq uca tonla dedi: “Kim məndən zorla beyət almaq istəyir? Sən, ey Vəlid?

Ala bilərsinizmi? And olsun Allaha, buna gücünüz çatmaz. Və bilin ki, ”مثله

”ومثلى لا يبايع “Mənim kimisi heç vaxt Yezid kimisinə beyət etməz.”[11] Heç ola bilərmi ki, mən beyət edim?! «لكِن تُصبِحُ وَتُصبِحونَ وَنَنظُرُ وَتَنظُرُونَ Lakin səhərə kimi səbir edək, görək nə olur. İmam özü ilə yoldaşlarının əmin-amanlıqla Məkkəyə yola düşmək və böyük hərəkatına başlamaq üçün fürsəti əldən vermək istəmirdi. Ona görə də həmin məclisi tərk edib axşamı yola düşdü.

Həmin məclisdə imam (ə) Mərvan sözünü bitirdikdən sonra, ya da məclisi tərk etdikdən sonra dəqiq yadımda qalmayıb- Mərvan ibn Həkəmə Yezid barədə danışdı. Mərvan isə dedi ki, ey Hüseyn ibn Əli! Sənə beyət etməyi məsləhət edərdim. Başına bəla açma, bu işin həyata keçməsinə mane olma. Həzrətsə cavabında إنا لله وإنا إليه راجعون وَعَلَى الإسلام السلام إذ يُلِيتِ الأُمَّةُ :buyurdu براع مثل يزيد

“Biz Allahınıq (Allahın bəndələriyik) və (öləndən sonra da) Ona tərəf (Onun dərgahına) qayıdacağıq! Müsəlmanların xəlifəsi Yezid kimi birisi olarsa, onda İslamla xudahafizləşmək gərəkdir.”[12] İmamın bu sözü qeyd etdiyimiz İslam dövlətçilik sistemində baş verə bilən sapqınlığa işarədir. Belə bir sapqınlıq üçün Biz Allahınıq va Ona taraf انا الله وانا اليه راجعون” imam qayıdacağıq!”[13] -ayəsini dilə gətirir, yəni son dərəcədə qorxu və nigarançılığını çatdırmaq istəyir. Bu ayə oxunursa, deməli, ortada son dərəcə nigarançılığa səbəb olan bir şey var. Demək istəyir ki, İslam ümmətinə Yezid kimi birisi hakim olarsa, onda bunun hədsiz dərəcədə nigarançılıq və qorxusu vardır. وعلى الاسلام السلام اذ قد بليت الأمة براع مثل Musalmanların xalifasi يزيد Yezid kimi birisi olarsa, onda İslamla xudahafizləşmək gərəkdir”-cümləsi ilə imam demək istəyir ki, camaatın çobanı[14] Yezid kimi birisi olarsa, bu, qoyunları canavara tapşırmaq deməkdir və belə olan halda isə وعلى الاسلام السلام islamla xudahafizləşmək lazımdır, yəni belə bir dövlətdə İslama daha yer yoxdur. Hüseyn ibn Əlinin (ə) hədəfi isə İslamı diriltmək idi.

Hüseyn ibn Əlinin Yezidin özü ilə şəxsi münasibətində heç bir problemi yox idi, yəni imam Hüseyn üçün bir insan olaraq Yezidlə qeyri-Yezid arasında bir fərq yoxdur. Əlbəttə, pozğun və fasiq Yezid imam Hüseynin (ə) nəzərində pozğun və fasiq olaraq qalır, amma həmin pozğun, fasiq

11 - Biharul-anvar, -37ci bab, 2ci hadis.
12 - Biharul-anvar, -37ci bab, 2ci hadis.
13 - Baqara: 156
14 - Hədisdəki «Rain sözü hami, mühafizəçi və çoban kimi manalar ifadə edir.

Yezid müsəlmanların xəlifəsi, peyğəmbər canişini olmaq istədikdə təhlükə siqnalı işə düşür və belə bir vəziyyətdə Hüseyn ibn Əli həmin sapqınlığın başlandığını, ya da öz pik həddinə çatdığını hiss edir. Ola bilsin, sapqınlığın başlanğıcı deyil, əksinə, həzrət peyğəmbərin işarə etdiyi sapqınlığın son pik həddidir. Gələn bəhsimizdə imam Hüseynin peyğəmbərdən nəql etdiyi hədisi bu məsələ ilə əlaqədar qeyd edəcəm. Bu elə bir vəziyyətdir ki, artıq səbir etmək olmur, bu vaxta kimi səbir etdiksə, daha bəsdir, bu gün səbir etmək zamanı deyil, gərək hərəkət edəsən.

Həmin gün Mədinənin valisi imam Hüseyndən beyət ala bilmədi. Məcbur qalıb dedi ki, bu gecə gedin, sabah, ya da başqa gün gələrsiz. İmam Hüseyn də məclisdən çıxıb həmin gecə Mədinədən çıxdı. O həzrət qalmağının heç bir mənası olmayacağını bilib gecə ilə Məkkəyə tərəf yola düşdü. Məkkədə imam Hüseynin Məhəmməd ibn Hənəfiyyəyə yazdığı bir vəsiyyət də هذا ما أوصى به الحسين بن علي بن أبي طالب إلى أخيه مُحَمَّدٍ المعروف بابن الحنفيه oldu. Vasiyyət belə başlayır: "Bu Hüseyn ibn Əli ibn Əbutalibin, ibn Hənəfiyyə adı ilə tanınan Məhəmməd qardaşına yazdığı vəsiyyətidir."[15] Sonra isə adi qaydada bizim yazdığımız vəsiyyətlərdə olduğu kimi, əvvəl, Allahın təkliyinə, sonra peyğəmbərin haqq olduğuna şəhadət verir. Necə deyərlər, bunu ona görə edir ki, o zəmanənin təbliğatçıları sonradan imamı ittiham edə bilməsinlər. Daha sonra belə buyurur: وَ أَنَى لَم أَخرج، أثراً ولا بطراً ولا مفيداً Yani mənim Mədinədən çıxmağımın səbəbi təkəbbür və ya məğrurluq, ya da Yezidi adam hesab etməyib özümü ondan yuxarı saydığıma görə deyil. Məsələ şəxsi marağa, emosiyaya qapanmağa görə deyil. Mədinədən çıxmağımın səbəbi zülm və ara qarışdırmaqdan ötrü də deyil (Tarix boyu hökuməti devirənlər ortada məntiq olmadan hakimiyyət uğrunda mübarizə aparıblar. Bir dəfəlik ayağa qalxıb dinc əhalini qırıb zülm etməyə başlayırlar. Eynilə bu gün dövlətimizdə baş verən hadisələr kimi.[16] Hökumət işində işləyə işləyə heç bir əsaslı etirazları olmadan, aralarında məsələləri müzakirə edir və daha sonra küçələrə gələrək bomba quraşdırıb terror aktları təşkil edirlər, günahsız insanların ölümünə bais olurlar, ya da şəhər və kənlərdə çaxnaşma salırlar). İmam buyurur ki, mənim gördüyüm iş bu kimi işlərlə səhv düşməsin, Mədinədən çıxmağımın səbəbi şəxsi mənafelərimə, emosiyalarıma görə deyil və nə də zülm və fəsada görədir. Bunu hələ Məkkədən çıxmamış demişdi. Mədinədən

15 - Biharul-anvar, -37ci babın axırı

16 - Bu, 1982-ci illərdə İranda baş verən hadisələrə işarədir.

çıxmışdı, amma məsələ qiyam məsələsidir, hərəkata başlamaqdır. Bu, ilahi hərəmə (Kəbəyə) sığınmaq anlamında deyil. Əks təqdirdə, أخرج xaric oluram, çıxıram[17] ifadəsi o dövrün mədəniyyətində işlədilən mənada anlaşıla bilmir. İmam belə buyurur: «لَم أَخْرُجَ أَشِراً وَلا بَطِراً» Yani bizim bu qiyamımız, xürucumuz (çıxmağımız), hərəkətimız təkəbbürlük, eqoistlik, məqampərəstlik üzündən deyil. Zalımların, fitnəkarların və dünya sitəmkarlarının işinə bənzəmir. Biz zülm etmək üçün gəlməmişik, fəsad etmək istəmirik. Bizim məqsədimiz fərqlidir. Niyə xüruc etdim? «وَ إِنَّمَا خَرَجَتُ لِطَّلَبِ الإصلاح في أمه جدّى» Man ancaq cəddimin ümmətini islah etmək üçün çıxmışam, yəni peyğəmbərin(s) ümməti içərisində yaranmış fəsadı aradan qaldırmaq istəyirəm, yəni bundan öncə haqqında danışdığımız peyğəmbərin (İslam dövlətçiliyi haqqında) proqnozu və öhdəliyi təyin etməsi məsələsi. Burada sözügedən fəsad və sapqınlıq məhz odur və elə buna görə imam deyir ki, mən həmin sapqınlığı aradan aparmaq istəyirəm أريد أن أمر بالمعروف وَأَنهَى عَنِ الْمُنكَرِ Yaxşı işlər görməyə əmr edib pis əməllərdən çəkindirmək istəyirəm. Yəni bu hərəkatın mahiyyəti və ruhu xeyirli, yaxşı işlər görməyə əmr edib pis əməllərdən çəkindirməkdir. İnsanları cəmiyyətdə olan pis əməllərdən çəkindirmək və İslamdakı yaxşı əməllərə dəvət etmək istəyirəm.

وَ أسير بسيره جدى و أبي علي ابن أبي طالب

Babamin va atam Əli ibn Əbutalibin üslubu ilə davranıram. Yəni həmin imamət İslamını, insanlar arasındakı Allah hakimiyyətini yenidən diriltmək istəyirəm. Ümumiyyətlə, hədəfim elə məhz budur.

Bu, Hüseyn ibn Əlinin (ə) başlatdığı hərəkatının həqiqətidir. Seyyidüş-şühədanın müqəddəs vücudu Məkkəyə təşrif buyuranda Məkkədə Küfə camaatına məktub yazır. Əgər hərəkat, qiyam baş vermək istəyirsə, bu, heç də insanın özünü ölümə verməsi anlamında deyil, yəni başlatdığı hərəkat ortada heç bir təsir, fayda və səmərəsi olmadan olsun. Əsla! Bu, Hüseyn ibn Əli(ə) tərəfindən Əməvi və Yezidin hökumətini laxladan bir hərəkat olmalıdır. Baxmayaraq ki, bu, o həzrətin ölümü ilə nəticələnə bilər[18], lakin məqsəd ondan ibarətdir ki, başlanan hərəkatla zalım və fəsadçı hökumətə zərbə vurulsun. Həzrət də bunu etmək istəyir. Eyni zamanda bu işin həyata keçməsi üçün fiziki və maddi səbəblər lazımdır. Belə ki, bir

17 - “Xaric oluram, xüruc edirəm” - ifadəsi “qiyam edirəm” mənasını ifadə edir.

18 - Bir hərəkatın ölümlə nəticələnməsi heç də onun ölümə görə başlaması demək deyil.

qrup insanlar toplaşmalı və imkanlar hazır olmalıdır. Məktubun yazılmağa başlaması da məhz buna görədir. Digər tərəfdən, Küfədə olan şiələr -o zaman Küfə şiələrin mərkəzi idi-və Əmirəlmöminin səhabələri -o kəslər ki, həzrət Əli ilə yaxından tanış idilər, döyüşlərdə o həzrətin qoşununda vuruşmuşdular, Həbib ibn Məzair kimiləri, İslam cəmiyyətinin adlı-sanlı şəxsiyyətləri bunların hamısı Küfədə idilər və tanınırdılar, ümumi kütlə də onları qəbul edir və onları sevirdilər, həmin şəxslər imama məktub yazdılar ki, siz gəlin Küfəyə, biz hazırıq və səzi himayə edib Əməvi hökumətinin əleyhinə qiyam edəcəyik.

Qeyd edək ki, yazılan məktublar müxtəlif intonasiyada idi. Belə ki, bəzi məktublarda "Düşmənin dünyadan köçüb və sənin hökuməti İslam xəttinə qaytarmaq şansın çoxdur, gəl" deyə yazılmışdı. Bəzi məktublarda isə "Küfənin arxları cari olub, ağacları bar gətirib" kimi sözlər yazılmışdı. Küfənin xoş ab-havasını Hüseyn ibn Əli üçün təsvir edirdilər. Bu da məktub yazanın ağlı, düşüncəsi və şuru ilə əlaqədardır. Bəziləri bu cür olublar. Elə ona görə də öz səviyyələrinə uyğun məktub yazmışdılar. Bəzilərinin də düşüncə səviyyəsi avamcasına olduğundan həzrəti meyvə yeməyə, məsələn, tut ağacımız bar gətirib, gəlin tutdan yeyib havadan bəhrələnin kimi düşüncələrlə məktub yazmışdılar. Bütün yazılan məktublar durur və hər cür məktub var. Əlbəttə, bəziləri mübaliğə edərək məktubların sayını bir neçə min olduğunu deyiblər: 20000 və 70000 məktub, amma məktubların sayının bundan daha az olması ehtimalı istisna olunmur. Hər halda, Məkkədə olarkən imama gələn məktubların sayı çox olur. İmam isə bunları alır və nəhayət, yola düşür.

Mədinə və Məkkədəki adlı-sanlı tanınmış şəxslər məsələnin həqiqətini bilmədiklərindən imamın işinə qarşı çıxdılar. İbn Əbbas müxalifətçilik etdi, Məhəmməd ibn Hənəfiyyə müxalifətçilik etdi, Əbdullah ibn Cəfər -imamın bacısı həzrət Zeynəbin həyat yoldaşı və bir çoxları müxalifətçilik etdilər. Həmin şəxsiyyətlərin hamısı ya da bəziləri hamısı deyil- yaxşı insanlar idi, toplum içərisində məqbul idilər, hörmətləri var idi.

Onlarım çoxu imam Hüseynə(ə) dəlil gətirərək onu razı salmaq istəyirdilər və imam Hüseyni Kərbəlaya getməyə qoymurdular. Bunu onu sevdiklərinə görə edirdilər. Qardaşı Məhəmməd ibn Hənəfiyyə kimi, yeznəsi Abdullah ibn Cəfər kimi, əmisi oğlu Abdullah ibn Abbas kimi, qardaşı Ömər ibn Əli

kimi və bir çoxları Allah Rəsulunun həyat yoldaşı Ümmü Sələmə kimi və daha başqaları imam Hüseynlə müzakirə edib ona olan sevgilərini göstərirdilər. Özləri də Müaviyəyə, Yezidə müqavimət göstərmişdilər, onlarla mübarizə aparmışdılar, amma onlar imam Hüseynin hərəkatını qəbul etməyə hazır deyildilər, belə ki, nə özləri hərəkata qoşulurdular, nə də imam Hüseynin bu işi görməsinə icazə verirdilər. İmam Hüseynlə onların fərqi elə məhz bu idi: onlar təkcə danışmaqla kifayətlənirdilər.

Bəli, Nəhcül-bəlağə və digər tarix kitablarında -bunlar da öz növbəsində mötəbər mənbələrdən nəql ediblər gələn məlumatlara əsasən, Abdullah ibn Abbasla Əmirəlmöminin arasında hər hansı bir hadisə baş versə də, Abdullah ibn Abbasın Əmirəlmömininə və peyğəmbər ailəsinə qarşı vəfadarlığında şəkk etmək gərəksizdir. Mənim bunda heç bir şəkkim yoxdur. Mən tarixdə, Abdullah ibn Abbasın keçmiş və sonrakı dövrlərinə təsadüf edən Aşura hadisələrindən sonrakı həyatını mülahizə edirdim. Heç bir şübhə yoxdur ki, Abdullah ibn Abbas peyğəmbər ailəsinin səmimi dostlarından, müridlərindən və onların müxaliflərinə qarşı olan birisi olub. Müaviyə ilə arası pis olub, Yezidlə də arası pis olub. Yeziddən sonra gələnlərə isə müqavimət göstərərək etiraz edib.

Yaxud misal olaraq Abdullah ibn Cəfərı görürük. Əlbəttə, Abdullah ibn Cəfər Abdullah ibn Abbas kimi olmayıb. O, Müaviyə ilə yaxın idi, onunla dost idi, Müaviyə isə ona hörmət göstərirdi, biri-birləri ilə get-gəlləri var idi. Abdullah ibn Cəfərin oğlu Yezidlə dost olub və çox yaxın səmimi münasibətləri olub. Abdullah ibn Cəfərin şəxsiyyət olaraq elmi, təqvası və zahidliliyi Abdullah ibn Abbas qədər olmayıb. Nə Məkkədə, nə Mədinədə, nə də sonralar İslam tarixində onun adı keçməyib. Abdullah ibn Cəfər məhz belə bir şəxsiyyət olub. Amma hər halda, imam Hüseynə qarşı olan sevgisində, səmimiyyətində şəkk-şübhə yoxdur. İmam Hüseynin böyük çətinliklərə düçar olmasını əsla istəmirdi.

Ya da Peyğəmbərin hörmətli zövcəsi olan Ümmü Sələməni misal götürək. O da belə idi. Baxmayaraq ki, yaxşı qadın idi, yaşlı idi, Peyğəmbərin zövcəsi idi və imam Hüseyni çox istəyirdi, amma bunların hamısı imam Hüseynin yolunu xüsusi mənada o həzrətin istədiyi kimi qəbul etmirdilər.

Bəziləri hətta məktub da yazdılar və imam Hüseynin yarı yoldan Kərbəlaya tərəf, Küfəyə tərəf yola düşəndə onun qayıtmasını istədilər, yəni yenə geriyə qayıtmasını istədilər. Bəziləri də məyus olmayıb sonradan qayıtması üçün məktub yazdılar. Niyə? Çünki onlar analiz edirdilər, bu işin hansı məqsədlə olduğunu görürdülər və bu iş həzrətin hakimiyyəti əldə etməsi üçün idisə, lazımi şəraitin çox hissəsi mövcud deyildi. Əgər Hərəkatın özü məqsəd idisə, hərəkət təlimi verilməli idisə, həmin dövrün insanları və gələcək nəsil bu hərəkatla təhrik olmalı idisə və onda ölüm də var idisə, bunlar özlərini o şəkildə şəhid etməyə hazır deyildilər, bu hazırlıq bunlarda yox idi. Elə buna görə də məktub yazırdılar, irad axtarırdılar, həzrəti bu işdən çəkindirirdilər. Amma həzrət bütün bu tövsiyyələrə, necə deyərlər, nəsihətlərə baxmayaraq, bildiyi şey əsasında ağıllı və tədbirli bir şəkildə hərəkət etdi.

İmam Hüseynin hərəkatı o dövrün müsəlmanlarına, dünya insanlarına və tarix boyu bütün müsəlmanlara başa salmaq istəyirdi ki, İslam cəmiyyəti, İslam dövlətinin vəziyyəti belə bir duruma çatarsa, hökumətin başında imamın yerinə soltan oturarsa, ilahi öhdəlik bundan ibarətdir. İlahi öhdəlik hərəkət etməkdir, öhdəlik qiyam etməkdir, öhdəlik bütün mümkün olan vasitələrlə etiraz etməkdir. Əgər qılıncla mümkündürsə, onda bunu dillə etməyə haqqın yoxdur, dillə kifayətlənə bilməzsən. Əgər acı dillə mümkündürsə, onda bunu mülayim dillə deyə bilməzsən, gərək əlində olan ən şiddətli və ən güclü vasitələrlə mübarizəyə başlayasan. Odur ki, mübarizənin sonu nə ilə nəticələnirsə nəticələnsin, ölümlə nəticələnsə də belə. Bu, imam Hüseynin yoludur. İmam Hüseynin hərəkatı məhz buna görə idi. O, ilahi öhdəliyin nədən ibarət olduğunu göstərmək istəyirdi.

Məhərrəm ayının 8-ci günü[19] hamı Məkkəyə tərəf gəlməli və Ərəfata getməlidirlər ki, Həcc əməllərini yerinə yetirsinlər, amma buna baxmayaraq, həzrət həmin gün Məkkədən çıxıb Küfəyə tərəf gəldi. Əlbəttə, belə bir gündə hərəkət etmək imam Hüseynin(ə) bütün insanların diqqətini

19 - O, mənim İmam Hüseyn Məhərrəm ayının 8-ci günü hərəkət edib- dediyimi yazıb. Bəli, məqsədim Zilhəccənin 8-ci günüdür. Əgər Məhərrəmin 8-ci günü demişəmsə, onda səhvdir. Məhərrəmin 8-ci günü demişəm? səhv olub. Gərək o həzrətin hərəkəti Zilhəccənin 8-ci günü olsun. Qardaş, hacıların Məkkəyə doğru hansı gündə getmələri məlumdur da. Hamı Məkkədə toplaşıb. Bu, Zilhiccanin 8-ci günüdür də!? Siz ki Məkkəyə gedmisiz.

öz görəcəyi işin həqiqətinə cəlb etməkdən ötrü olmuşdu. Hamı bilməli idi ki, Hüseyn ibn Əli(ə) bu böyük işi yerinə yetirdi. Yola düşdülər və yol boyu hadisələr, çətinliklər baş verdi. Bunların təfsilatı çoxdur və mən onlar haqda danışmaq istəmirəm.

Nəhayət, o yerə çatdılar ki, Hürr ibn Yezid Riyahi həzrətin qabağını kəsdi. Bu hərəkatın və əməlin daşıdığı - o həzrətin sözlərindən aydın olduğu kimi məqsədləri həzrətin bəzi kəlamlarında axtarmaq istəyirəm. Bu atılan addımın hansı məqsədlə və hansı hədəflə baş verdiyini olduğu kimi aydınlaşdırmaq niyyətindəyəm. Hürr ibn Yezid Riyahi, bildiyiniz kimi, o həzrətə maneçilik yaradaraq onun qabağını kəsdi. Həzrət də Küfəyə doğru gedirdi. Yəni İbn Ziyad fikirləşirdi ki, Hüseyn ibn Əli Küfəyə çatsa, Küfədə bir dəstə insanları həvəsə gətirə, ürəkləndirə və imam Hüseynin ətrafına böyük qüvvə toplana bilər. Bəlkə də, elə bu cür olardı, yəni əgər həzrət Küfəyə daxil olsaydı, bir çoxlarına keçmiş günləri, xatirələri yada salardı. Bəli, Küfə imam Hüseynin atası Əmirəlmömininin hakimiyyətdə olduğu bir yer olub. Bu, həmin şəhər idi ki, Hüseyn ibn Əlinin özü müsəlmanların xəlifəsi, atası ilə birgə uzun illər o şəhərdə yaşamışdı. Camaat onu görür və tanıyırdı. Hələ üstündən çox zaman keçməmişdi, təqribən, 20 il keçmişdi, amma 20 il uzun müddət deyildi, xatirələr qalırdı, imam Hüseyn Küfəni, onun məhəllələrini, orada yaşayan qəbilələri, onların başçılarını bunların hamısını tanıyırdı və elə bu da Küfə hakiminə, icra başçısına təhlükə kimi görsənirdi. Buna görə də, qəti olaraq həzrətin Küfəyə daxil olmasını istəmirdilər və hərəkatının qarşısını almaq fikrində idilər.

Onlar həzrətin geriyə qayıtmasını da istəmirdilər, çünki bilirdilər ki, Məkkəyə tərəf qayıtsa, onda onlar üçün başqa problemlər yarana bilərdi. Deyirdilər: İndiki düşmən tələlərinə düşüb elə güman edirdilər ki, o həzrət əllərindədir onu elə burdaca bütün qüvvə və imkanları ilə birgə məhv etsinlər. Buna görə, Hürr ibn Yezid Riyahini min nəfərlik atlılarla həzrətin qarşısına göndərdilər. O, həzrətin qabağını kəsdi və Dedi: Qoymaram Küfəyə gedəsən. Həzrət israr etsə də, o, qəbul etmədi, yəni qəbul etməyə gəlməmişdi. Ona görə də, qəbul etmədi. Həzrət dedi ki, onda mən qayıdıram. Hürr qayıtmasına da icazə vermədi.

Birinci məntəqədə deyəsən, “şəraf” adlı məntəqə idi- Hürlə görüşəndə,

həzrət orda bir neçə söz dedi. Çünki həzrətlə döyüşə gələnlər Küfə camaatı idi, İraq camaatı idi. Həzrət onlara xatırlatdı ki, məni siz dəvət etmisiz, mənim gəlib ilahi hökuməti, İslam hakimiyyətini qurmağıma, sizinlə həmkarlıq etməyimə hazır olduğunuzu siz mənə xəbər göndərmişdiniz. İndi, niyə sözünüzdən dönürsünüz?

Növbəti məntəqədə yenə həzrət bir az söhbət etdi. Həmin yerdə Hüseyn ibn Əlinin (ə) alovlu xütbələrindən biri baş verdi. Mən o xütbədən bir necə cümlə oxuyuram. Həzrət üzünü əshabələrinə tutub-Küfəlilər də orda idi və eşidirdilər onu həmd-sənadan sonra belə buyurdu:

انه قد نزل من الامر ما قد ترون [20]
Qarşımıza çixan hadisani özünüz müşahida etdiniz, و ان الدنيا تغيرت و تنكرت ادبر معروفها dünya əvəz oldu, qiyafəsi dəyişildi və onun xeyri çəkildi, tamamlandı.

Sözləri söyləyən o kəsdir ki, ömründən az vaxt qaldığını hiss edir.

Dünyadan qalan ولم يبق منها الا صبابه كصبابه الاناء yalnız qabın dibindəki suyun miqdarı qədərdir. Zərfin dibində qalan mayedir, bir necə qətrədir. Bir neçə الا ترون الى الحق لا يعمل به cümladan sonra isa bela buyurur والى الباطل لا يتناهى عنه, Magar haqqa amal olunmadiğini batildən isə çəkinilmədiyini görmürsünüzmü?

Bu, Hüseyn ibn Əlinin (ə) ideologiyasının məğzidir. Yəni İslam toplumunun doğru və həqiqi vəziyyətindən uzaqlaşdığını görmürsünüz? Haqqa əməl olunmadığını, əvəzində isə batilə əməl olunduğunu görmürsünüz? Yaxşı, burda nə etməli? İnsan haqqa əməl olunmadığını, batilə əməl olunduğunu, insan qarşısında dünyanı zülmlə, haqsızlıqla, bədbəxtçiliklə dolu olduğunu, haqqa əməl olunmayıb batilə əməl olması ilə görəndə اليرغب المومن في لقاء ربه حقا حقا (na etmalidir? (Cavab man ölümü yalnız saadat hesab فانى لا ارى الموت الا سعاده Möminin haqqı çatır ki, Rəbbinin görüşünə tələssin, edirəm, والحياه مع الظالمين الابرماء və zalımlarla birgə olan həyatı yalnız çətinlik, ağrı, narahatçılıq, qəm-qüssə kimi görürəm. Bu ifadələr hazırlıq deməkdir, belə ki, imam Hüseyn hərəkət edəndən

20 - Biharul-ənvar, 37-ci bab. Xütbənin harada söyləndiyi barədə fikir ayrılığı mövcuddur.

sonra məktub yazdı, gəldiklərini elan etdilər, Müslim ibn Əqilin[٢١] vasitəsi ilə Küfəlilərə «Biz gəlmişik, döyüşməyə hazır olun»- deyə dedilər. Amma həzrət gördü ki, onun Küfəyə tərəf hərəkət etməsinə maneə olurlar. Ona görə də, hərəkatın ikinci nəticəsi baş verməli olurdu. Birinci nəticə nə idi? Hakimiyyət. İkinci nəticə isə şəhadət idi. Mütləq, bu iki nəticədən biri baş verməli idi. Həzrət hərəkatın hakimiyyətlə nəticələnməsinin baş tutmadığını hiss edir. Bu yolda baş tuta bilən şəhadətdir, Allahla görüşdür. Buna görə, özünün də hazır olduğunu elan edir. Bu, elə bir vəziyyətdir ki, mömin burada gərək Allahı ilə görüşməyə rəğbətli olsun. İnsan, qarşısında zülmlə dolu olan dünyanı görəndə, insan zalımların, sitəmkarların dünyanı idarə etdiyini görəndə, gərək bununla mübarizəyə hazır olsun, bu vəziyyətə etiraz etsin və şəhadət də bu kimi şəraitdə ona şirin olmalıdır. Bu, o həzrətin bəyan etdiklərindən sadəcə biridir.

Deməli, bu, o həzrətin söylədiyi nitqlərdən biridir. Daha sonra Hürr ibn Yezid təzyiq göstərməyə davam edərək həzrətə Küfəyə tərəf getməsinə və ya geriyə qayıtmasına icazə vermir. Nəticədə, Hüseyn ibn Əli orta yolu seçib hərəkət edir. Hürr ibn Yezid də həzrətin kənarında hərəkət edir, yəni Hürrə[22] həzrətin qabağa gəlməməsini və arxaya çəkilməməsini tapşırmışdılar. Bu iki istiqaməti Hürrə tapşırmışdılar, amma üçüncü istiqamət barədə, yəni həzrət orta yol seçdiyi təqdirdə, nə etməli olduğunu ona göstəriş verməmişdilər və nə edəcəyini bilmirdi. Bu səbəbdən dolayı düşündü ki, vəzifəsi təkcə həzrətin ardınca yola düşməkdir, belə ki, hara gedərsə, onunla birgə getməkdir. Bu minvalla, Hürr həzrətin kənarında yola düşərək bir-bir məntəqələri keçərək Kərbəlaya çatdılar.

---

21 - Mötəbər tarix kitablarını araşdırdıqda məlum olur ki, imamın məktubunu Küfəyə aparan Qeys ibn Mushardir. Müslim imamdan olan məktubu Küfəlilərə beyət etmək üçün ondan qabaq aparır və sonra Küfəlilərin hazır olduğunu imama məktubda qeyd edərək yollayır. Sonra imam Küfə yolunda Qeysin vasitəsi ilə Küfəyə məktub yollayır ki, özünün hərəkət etməsini onlara bildirsin. Bu baş verdiyi zaman Müslim artıq şəhadətə yetişmişdi. Cənab Qeys də Küfəyə daxil olandan sonra, ibn Ziyad tərəfindən şəhadətə yetişir. İmam Hüseyn Qeysin şəhadətini eşidəndən sonra Əhzab surəsinin -23ci ayəsini oxuyur: “Möminlərin içərisində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər”.

22 - Hürr, onu üzrlü bilmələrini istəyirdi və ancaq ona tapşırılan əmri də yerinə yetirmək üçün çalışırdı.

Kərbəlaya çatmamış, məntəqələrin birində həzrət yenidən geniş bir nitq söylədi. Ola bilsin, elə də geniş olmasın, amma kəskin və çox güclü idi. İmam bu söhbətində qeyd etdiyim məsələni Peyğəmbərin hökmünü bəyan edib, əməli bizim və sonrakı nəslin öhdəsinə qoymasını bəyan edir.

İkinci və ya üçüncü Beyzə adlanan məntəqədə həzrət nitq söyləyir. O nitqdə həzrət belə buyurur:

بسم الله الرحمن الرحيم، أيها الناس ان رسول الله صلى الله عليه وآله قد قال في حياته من رأى سلطانا جائرا مستحلا لحرم الله ناكثا لعهد الله مخالفا لسنه رسول الله يعمل في عباد الله بالاثم والعدوان ثم لم يغير بقول ولا فعل

كان حقيقا على الله ان يدخله مدخله[23]

Ey insanlar! Burada "insanlar"dan məqsəd həm imam Hüseynin məntiqini və fikrini yaxşı eşidən və bəlkə də bilənlərdir. Bildiklərinə baxmayaraq, təkrar olaraq onlara deyilməsi məsələnin zehinlərində. möhkəmləşməsi məqsədi ilədir. Həm də "insanlar" dedikdə, Hürr ibn Yezidin ətrafındakılar nəzərdə tutulur, o şəxslər ki, bu sözləri daha az eşitmişdilər və imam Hüseynin (ə) nə üçün gəldiyini yaxşı bilmirdilər, xüsusən də nəzərə alsaq ki, Hüseynin (ə) əleyhinə təbliğat çox gedirdi.

"Ey insanlar!" yəni ey mənimlə olanlar və mənim hərəkatımın mahiyyətini anlamaq istəyənlər, ey bu gün düşmənimiz olaraq müqabilimizdə dayananlar və ey Hüseynin (ə) qiyam xəbəri sizə çatıb peyğəmbər övladının nə üçün qiyam etdiyini bilməyib bitərəf qalanlar, ey tarixdə İslam hökmlərini, ilahi qanunları bilmək istəyənlər və bizim niyə qiyam etdiyimizi bilməyənlər, bilin:

أيها الناس ان رسول الله صلى الله عليه وآله قد قال في حياته من رأى سلطانا جائرا مستحلا لحرم الله ناكثا لعهد الله مخالفا لسنه رسول الله يعمل في عباد الله بالاثم والعدوان ثم لم يغير بقول ولا فعل كان حقيقا على الله ان يدخله مدخله

Bu, Peyğəmbərin sözüdür, yəni ey insanlar mən özümdən söz demirəm, mən şəxsi nəzərimi və düşüncəmi irəli sürmürəm, bu peyğəmbərin buyur-

23 - Vaqiatut-taff /Xurucul-Huseyn aleyhissəlam min Makka/Manazilut-tariq/Manzilul-beyza.

duğu hökmdür, mən də o hökmə əməl edirəm. Allah rəsulu buyurub: Kim cəmiyyətdə Allahın haramını halal edən, halalını haram edən, Allahın əhd-peymanını sındıran, Allah bəndələri arasında zülmlə, sitəmlə, düşməncəsinə hərəkət edən, əməl edən soltan görərsə, yəni elə bir soltan ki, camaata qarşı heç bir sevgisi yoxdur, camaatı sevmir, camaatın mənfəəti onun üçün heç bir əhəmiyyət daşımır, təkcə öz mənfəəti əhəmiyyətlidir, kim belə bir vəziyyət görərsə və buna qarşı dillə və ya əməllə etiraz o zaman Allaha كان حقيقا على الله ان يدخله مدخله etmasa vacib və haqq olar ki, bu laqeyd insanı, qiyamətdə zalımı daxil etdiyi yerə aparsın, bunu da o zalımın əzabına düçar etsin, sitəmin, fəsadın, sapqınlığın müqabilində laqeyd olduğuna görə. Əslində laqeyd olanlar imkanlarını, potensiallarını Allahın istəyindən, haqqı kürsüyə otuzdurub ilahi hökmləri icra edənlərdən, belə bir cərəyandan əsirgəyirlər, güclərini ehtikar edirlər, halbuki bu güc Allah yolunda sərf olunmalı idi. Elə buna görədir ki, laqeyd insanlar zalımlara tabe olub, həqiqətdə onları təsdiq etmiş olurlar.

Bu gün İslam ölkələri, zalım soltanları olan, Allahın haramlarını halal edənlər Allahın əhdini pozub Amerika ilə əhd bağlayıblar. Bəli, insan Allahın əhdini pozarsa, bu zaman şeytanla əhd bağlamış olar, Allahın ahdi şeytanın əhdi ilə dəyişilər. Bu gün də böyük şeytan Amerikadır. Böyük şeytanla əhd bağlanıb və o millətin bütün mənfəəti, millətin bütün imkanları Allahın ixtiyarına verilməkdənsə, böyük şeytanın ixtiyarına verilirsə, bu, həmin məsələdir. Yəni ölkədə laqeyd insanlar vəziyyəti müşahidə etsələr də, özləri üçün heç bir öhdəlik görmürlər. Bunlar əslində nə ediblər? Allah üçün olan qüvvələri ilahi qoşundan, ordudan məhrum ediblər. Belə deyilmi? Bu, ona bənzəyir ki, çoxlu pulunuz ola-ola, kasıbın biri acından ölsün. Yaxşı, siz pulunuzu, maddi gücünüzü ehtikar etdiniz. Gərək insanın xilası üçün sərf olunsun, amma sərf etmirsiniz, yaxud millətin pula ehtiyacı olsa və siz pulu ehtikar etsəniz, malı ehtikar etsəniz, ehtiyacı olana, bir millətə, bir qrupa, bir topluma çatdırmasanız əslində günahkarsınız. Ölkədə olan bu qədər fəsadın, qanunsuzluğun müqabilində insan laqeyd olanda həqiqətdə nə edir? Həqiqətdə mənəvi enerjisini ehtikar edir və Allahın xidmətində olmur. Budur peyğəmbərin bəyan etdiyi.

Deməli, Hüseyn ibn Əlinin (ə) hərəkatı mövcud olan fəsadın və zülmün əleyhinə gücün sərf edilməsidir. İnsanlara öyrədir, tarixə öyrədir ki, əgər

cəmiyyətinizdə belə bir vəziyyət olsa, onda bu cür əməl edin.

Mən o dövrdə, boğanaq dövrdə, elə bir dövrdə ki, insan sözü çox da açıqca deyə bilmirdi və o vaxt İranda zalım soltan da hökumət edirdi, çoxları da belə vəziyyətə laqeyd yanaşırdılar, mən onda misal vururdum, yəni bu məsələni daha çox misal qalibində açıqlayırdım. Misalım ticarət üçün Hindistana gedən tacir barəsindədir. Bir gün səfərə getmək istəyəndə, evində bir tutuquşusu var idi, ona dedi ki, mən sənin vətəninə gedirəm. Sözün, tapşırığın, sifarişin varsa, de mənə. Tutuquşu dedi: Var, xahişim odur ki, Hindistanda qohumlarımız yaşayan yerə, yəni tutuquşuların məskəninə gedib mənim də onlardan olduğumu və sənin evində qəfəsdə qaldığımı onlara çatdırasan. Təkcə bu xəbəri onlara deyərsən və başqa heç bir şey lazım deyil.

Tacir yola düşdü, işlərini, ticarətini gördü, arvad-uşaqlarına, qohumlarına, qonşularına hədiyyələr alandan sonra tutuquşunun dediyi yerə getdi. Ora gedib tutuquşuların gözəl məskənlərini gördü. Minlərlə tutuquşu ağacların budağında nəğmə oxuyurdular. Onlara yaxınlaşıb dedi ki, sizə xəbər gətirmişəm. Xəbərin nə olduğunu soruşdular. Hamı sakit qalıb qulaq asmağa başladı. Tacir dedi: Sizdən biri evimdə İranın filan yerində qəfəsdədir.

Tacir bunu deyən kimi, bütün tutuquşular qanad çırparaq ağacın üstündən yerə düşüb hamılıqla öldülər. Tacir bu səhnəni görüb çox təəssüfləndi. Dedi: Ey vay, pis xəbərimlə bu qədər tutuquşunu elə kədərləndirdim ki, hamısı düşüb öldü.

Nəhayət, qəm-qüssə ilə öz şəhərinə gəlib çıxdı. Aldığı hədiyyələrini paylayıb qəfəsdə olan tutuquşunun yanına gəldi. Dedi: Maraqlı xəbər yolladın. Tutuquşu nə baş verdiyini soruşdu. Tacir dedi ki, sənin xəbərini tutuquşu qohumlarına deyən kimi, hamısı qanad vura-vura ağacın budaqlarından yerə düşüb öldülər. Tacir bunu deyən kimi, qəfəsdə milin üstündə oturan tutuquşusu qanad vura-vura düşüb öldü. Tacir çox təəssüflənib dedi: Necə də bədbəxtlik gətirən xəbər imiş, bundan onlara, onlardan da buna. Tacirin tutuquşusu ölmüşdü, qəfəsin qapısını açaraq tutuquşun ayağından tutub çıxardı və onu damın üstünə atdı. Tutuquşu qəfəsdən çölə atılan kimi, qəfildən qanad vuraraq dirilib uçmağa başladı. Uçub divarın başına qonub dedi: Ey cənab tacir, əziz malikim, bir-iki il sənə zəhmət verdim, mənə

yemək verdin, səndən üzr istəyirəm. Daha qohumlarımın yanına uçuram, onlar ölməyib, onlar da mənim kimi diridirlər. Onlar sənin vasitənlə mənə azad olmaq üçün yol göstərdilər. Odur ki, qanad vura-vura yerə düşdüm. Qanad vurmağı, ölməyi onlar mənə öyrətmişdilər. Bunu edib azad oldum. İndiyədək qəfəsində dustaq idim, indi isə azad oldum.

O zamanın boğanaq dövründə nitq söyləyərkən biz həmən misalı dostlarımıza, tanışlarımıza çəkirdik. Qoy bilsinlər ki, bəzən tarixdə bir hərəkat, bir əməl dərsdir, nümunədir, ülgüdür. O əməlin öz zamanında böyük təsiri olsa da, tarixdə qoyduğu təsiri daha böyükdür. İmam Hüseynin(ə) hərəkatı bu kimi əməllərdən hesab olunur. Hüseyn ibn Əli(ə) o vaxtlarda baş verən və günbəgün artan İslam cəmiyyətinin vəziyyəti qarşısında etdiyi hərəkəti ilə, qiyamı ilə təsir edə bildi. O zaman insanların fəryadı göyə qalxdı, o vaxtda Yezidin işinin həqiqəti əksər insanlara aşkar oldu, həmin Küfə camaatı, Şam camaatı az da olsa, Yezidi tanıdılar, Yezidin simasından pərdələr kənara çəkildi. Bu, böyük iş idi. Amma imam Hüseynin (ə) işinin o vaxt ki təsirindən daha böyük təsir bu əməlin tarixdə qoyduğu izdir. Bütün dünya müsəlmanlarına məlum oldu ki, İslam cəmiyyəti və İslam dövlətinin qatarı xətdən çıxarsa, əlac imam Hüseynin gördüyü işdədir. İslam dünyasını fəsad ağzına alarsa, əlac imam Hüseynin gördüyü işdədir.

Əziz imamımızın (imam Xomeyni) imam Hüseyndən bu dərsi necə yaxşı aldığını özünüz də gördünüz. Bəzilərinin qavraması zəifdir, imamın qavraması isə güclü idi və bu dərsi alıb bizə ötürdü. Bizə öyrətdi ki, cəmiyyətin yuxarısından sapqınlıq, diktatorluq, fəsad, zülm töküldüyünü görəriksə, tağut işin başında dayanan hökumətindən fəsadın qaynaqlandığını görəriksə, imam Hüseynin gördüyü işi görməliyik. Nə vaxt zəmanəmizdə Yezid kimisi tapılarsa, biz də imam Hüseynin şagirdi olub Hüseyni hərəkatı həyata keçirməliyik. Bunu Hüseyn ibn Əli(ə) bizə öyrətdi və biz buna həyatımızda əməl etdik. Belə deyilmi? Millətimiz bu işə əməl etdi, millətimiz Hüseynsayağı iş gördü, hərəkət etdi, zəmanənin Hüseyni, əziz və hörmətli imamımızın (imam Xomeyni) ardınca hərəkət etdilər. İmamımız özü hərəkət etdi, millət də ardınca hərəkət edib müsəlmanların, xalis möminlərin tağut hökumətinə qarşı min ildən çox olan arzularını həyata keçirdilər. O arzu baş verdi ki, bu gün Allahın yardımı ilə İslam dövləti quruldu və cəmiyyət içərisində mövcuddur. Əlbəttə ki,

qurulan İslam dövləti inkişaf edib kamil formasına çatmalıdır və inşallah, o istiqamətdə hərəkət də edir. Hüseyn ibn Əli(ə) elə bu böyük hədəfə görə o fədakarlıqlara, o qurbanlara, o əziyyətlərə və çətinliklərə səbir etdi. Elə çətinliklər ki, böyük ürəklər belə onların qarşısında kiçik və gücsüzdür, güclü ruh sahibləri belə zəifdir.

İmam Hüseynin gördüyü işi bu günə kimi dünyada heç kəs görə bilməyib. Mən bir dəfə demişdim: şəhadətlər, şəhidlər çox əziz və dəyərlidir, amma heç bir şəhadət və heç bir gün Hüseynin əshabələrinin və müqəddəs seyyiduş-şühədanın şəhadəti kimi ola bilməz. Heç bir gün də bu dünyada Aşura günü kimi olmayıb. O gündə baş verənlər şəhidlərin qəribçiliyidir, tənhalığıdır, baş verən çətinlikləridir. Onlar bədənlərinin yerdə qaldığını bilirdilər. Bu kimi şəhadətlər tarixdə misli olmayan şəhadətlərdir. Hüseyn (ə) şəhidlərin ağası və böyüyüdür, çünki heç kəsin o cür şəhadəti, o cür şəhadət istəyi olmamışdır. Əlbəttə, Hüseyn ibn Əli qüllənin zirvəsindədir və biz isə onun aşağısından zirvəsinə doğru hərəkət etməliyik.

**Bu, həmin stimul idi ki, bizim inqilabımızı hərəkətə gətirdi, biz bununla hərəkət etdik.** O boğanaq dövrdə canlarını ovuclarına qoyub mübarizə etdilər, dedilər, səbir etdilər, zindana düşdülər, ölümlə üz-üzə gəldilər və bəziləri də şəhid oldular. Peyğəmbərdən, övladı Hüseyn ibn Əlinin bütün müsəlmanlar üçün (hədisdə) nəql etdiyi təhrik, təşviq, cürət onları hərəkətə gətirdi, onları sirkələdi. Bu gün dünyada müsəlman toplumunun vəzifəsi, Hüseyn ibn Əlinin onlara verdiyi mesaj oyanış mesajıdır. Hər yerdə məsələ budur, insanın harada olmasının heç bir fərqi yoxdur. Əgər insan öz vəzifəsini yerinə yetirməsə, bu laqeyd, vəzifəsinə etinasız, İslamın xeyrinə etinasız, İslamın aqibətinə etinasız yanaşan adamın sonu Allah dərgahında zalımın sonu ilə eynidir. Qeyd edək ki, bu gün biz də dünyanın hegemon, qan içən dövlətlər qarşısında həmən öhdəliyi daşıyırıq. Biz mübarizəni hələ bitmiş hesab etmirik, biz hələ cəmiyyətimizdə Hüseyn hərəkatını sona yetmiş hesab etmirik, biz hələ də Kərbəla və Aşura yolunda hərəkət etməkdəyik. Millətimiz gərək özün meydanda, Neynavada və Kərbəlada olduğunu hiss etsin. Bir gün siz Hüseynçilər təqribən 1350 ildən sonra xain Məhəmmədrzanın (İran şahı) qarşısında qaldınız, bu gündə siz Hüseynçilər və Aşuraçılar Məhəmmədrzanın sahibləri dünya hegemonları ilə üzbəüz qalmısınız, bunların hər ikisi də eynidir. Budur müsəlmanların hərəkatının

ruhu, harada İslam üçün, ilahi hökmlərin qurulması üçün, İslamın yenidən dirçəlişi üçün hərəkat baş verərsə, bu, Hüseynçi hərəkatdır.

Bu, bir həqiqətdir ki, Fələstinin qurtuluşu üçün hərəkət edənlər əslində imam Hüseynin ardınca hərəkət etdilər. Bəzi Fələstin rəhbərləri “Biz Kərbəla ruhundan, Aşura ruhundan və Hüseyn hərəkatında ilham alırıq”- deyərək buna etiraf edirdilər, iddiaları, sözləri bu idi və o vaxt bu, bir reallıq idi. Dünyanın hər bir yerində bu cür hərəkat olsa, imam Hüseynin (ə) mesajına şamildir. Hüseyn ibn Əli bu ruhiyyə ilə hərəkət etdi: Möhkəm və bərk bir ruhiyyə ilə.

Siz bütün yol boyu Mədinədən Məkkəyə kimi, Məkkədə də bir neçə ay qaldıqdan sonra Məkkədən Kərbəlaya, yəni Zilhiccənin 8-dən Məhərrəmin 10-na kimi, təqribən 20-22 gün müddətində İmam Hüseynin müdafiə xarakterli söhbətini nəzərə almırsınız. Bütün söhbətlər hücum xarakterlidir. İmam Hüseyndən hər kəs sual soruşurdu. İmam da Cavab verərkən qarşı tərəfin tutumunu nəzərə alırdı. Məsələn, Fərəzdəq bir şairdir və ürəyi imam Hüseynlə olsa da, döyüşməyə, problemlər yaşamağa hal-hövsələsi yox idi. Və ya məsələn, Ümmü Sələmə haldan düşmüş yaşlı bir qadın idi və onun qəlbini sındırmaq düz olmazdı. Yaxud məsələn, Məhəmməd ibn Hənəfiyə kimi, ikinci dəfə Məkkədə xəstə halda - Məhəmməd ibn Hənəfiyə xəstə idi, bəlkə də xəstə olmasaydı imam Hüseynlə gələrdi - imamın görüşünə gələndə həzrət onun halını nəzərə alaraq cavabını verdi. Bu cür hallarda imam Hüseyn özünün əsl məqsədini, ağır sözünü qarşı tərəfin tutmu olmadığı təqdirdə deməzdi və bu kimi adamlara ümumi şəkildə cavab verərdi. Məsələn, “Allahın rizası nə olsa, odur”, “Qismət nə oldu”, “Biz özümüzü hazırlamışıq”, “İnşallah, bir şey olmaz”, “Görək, nə olacaq” kimi cavabları Məhəmməd ibn Hənəfiyyəyə söyləmişdi.

Müqabil tərəfə söz deyilməli yerdə o həzrət sözünü qətiyyətlə deyərdi. Vəlid ibn Ütbə imam Hüseyni Mədinədə azad buraxdıqdan sonra, Yezid ona qəzəblənərək tutduğu vəzifəsindən azad etdi. Yerinə isə Mədinənin valisi olaraq Ömər ibn Səd ibn Ası təyin etdi. Ömər ibn Səd həcc adı ilə Məkkəyə gəlmişdi. İmam Hüseyn Məkkədən hərəkət etmək istədi. Abdullah ibn Cəfər xanım Zeynəbin əri, Ömər ibn Sədin qardaşını götürərək tələm-tələsik və narahatçılıqla ondan amannamə aldı. Qaça-qaça,

tələsərək özünü Məkkədən kənar bir yerdə imam Hüseynə yetirdi. Dedi: Ağa! Bu, amannamədir, xahiş edirəm getməyin, qayıdın Məkkədə qalın, görək nə olur.

Bu kimi yerdə imam qətiyyətlə sözünü dedi. Buyurdu: “Aman Allahın amanıdır. Allahın amanını alan başqasının amanına ehtiyacı yoxdur.” İmam iddialı cavab verir.

İmam Kərbəlaya çatanda, Ömər ibn Səd də, deyəsən, Məhərrəmin -٣də Kərbəlaya daxil olur. Bir necə gün imam Hüseynlə Ömər ibn Səd arasında dialoq baş tutur.

Dəfələrlə Ömər ibn Səd imam Hüseynin xeyməsinə gələrək onunla söhbət edir. Belə söhbətlərin birində imamın Ömər ibn Sədə xitabı iddialı tərzdə olur. İndi, siz vəziyyəti təsəvvür edin: imam Hüseyn qiyamçıdır və hal-hazırda, zahiri görünüşdə biyabanda tələyə düşüb, mühasirə edilib. Həzrət bir dəstə qadınla, uşaqla və 50, 60 və ya 40 nəfər kişi ilə, o vaxt hələ 70 nəfərə çatmazdılar - cavan, yaşlı hər yaşda adamla biyabanda qalıblar. Ətraflarında da neçə min silahlanmış kişi, pul alıb adam öldürməyə toplaşan vəhşi heyvanlar var. İmam Məkkədə buyurduğu kimi: كانى باوصالى يتقطعها اعلان القلواه بين النواويس وكربلا[24] həmin vəhşi, ac, səhra canavarları. Əllərində şəmşirlər, nizələr, ağızları açıq qalaraq əmirləri Übeydullahdan paylarını gözləyirlər. İmamı məhz bu cür mühasirəyə almışdılar.

İndi, zahiri görünüşdə Hüseyn ibn Əli onların əlinə düşmüşdü. Belə bir vəziyyətdə insanın tonu necə olar? İndi, zahirdə qalib görsənən ordunun sərkərdəsi imam Hüseynin xeyməsinə daxil olur. Bunların arasında söhbət, sizcə, necə olmalıdır? Adətən, qalib tərəfin sərkərdəsi o birisini danlamalıdır. «Niyə gəlmisən?»-deyə söyləməlidir. Həzrət də cavabında «İndi, bir işdir olub, yoluna qoyaq»- kimi sözlərlə cavabın verməlidir. Amma bunun əksini görürük. İmam Hüseynin xeyməsinə gələndə imam Hüseyn ondan soruşur: Ey ibn Səd! Sən niyə bizimlə hərəkət etməyə, qiyam etməyə hazır olmursan? Deyir ki, uşaqlarım ordadır (Küfədə), qorxuram onların əlinə düşər. Həzrət deyir: Onda bizimlə döyüşmə, kənara çəkil, Übeydullahın fərmanından çıx. Ömər ibn Səd deyir: Çıxa bilmərəm,

24 - Biharul-anvar, 37-ci bab. Ela bil, biyaban canavarlarını Navavislə Karbala arasında bədənimi tikə-tikə parçaladığını görürəm.

qorxuram mənə hücum etsinlər, malımı qarət etsinlər. Yəni bu dialoqda biz imamın ona necə təsir etdiyini, ona etiraz etdiyini və onun da imamdan üzrxahlıq etdiyini görürük. Bu, imamın yüksək və möhkəm ruhiyyəsindən xəbər verir.

Qeyd edək ki, şəhadətin əlamətləri aşkar olanda və şəhadətin çıxılmaz olduğu məlum olanda, imam Hüseynin yaxınları, əzizləri və vəfalı əshabələri ilə danışıq tərzi də xüsusi hal alır. Əlbəttə, imam Hüseynə şəhadət məlum oldu deməklə imamın Məkkədən hərəkət edərkən öz şəhadətindən xəbərsiz olduğunu demək istəmirik. Xeyr! İmam Hüseyn qədər bilməyən bir kəs belə şəhid olacağını başa düşə bilərdi. Necə ki, imamın şəhadətə yetişəcəyini Fərəzdəq də başa düşmüşdü, Küfədən gələn o bir neçə nəfər də başa düşmüşdü, imamın arxasınca gələnlər də başa düşmüşdü və bir çoxları bu hərəkatın qanlı olduğunu və Hüseyn ibn Əlinin qətlə yetiriləcəyini anlamışdı. Amma imam Hüseyn (ə) bunu daha aydın şəkildə bilirdi. Hadisəni Peyğəmbər qabaqcadan tam olaraq ona demişdi və hamı da bunu bilirdi. İmam Hüseynin qardaşı, Əmirəlmömininin oğlu Ömər Ətraf Məkkədə həzrətin yadına salaraq dedi: Qardaş, peyğəmbərin "Hüseyn İraqda qətlə yetiriləcək" deməsi yadında deyilmi? Sən bu vəziyyətlə İraqa gedirsən!? Özünü ölümə verirsən.

Həzrət isə belə buyurdu: Elə bilirsən ki, sən biləni mən bilmirəm? Sənin yadında qalan mənim yadımdan çıxıb? Mən qətlə yetiriləcəyimi bilirəm Amma məsələ imam Hüseynin öldürüləcəyindən qorxması, boyun qaçırması deyildi. Həzrətin İraqda öldürülməsi müxtəlif şəkillərdə və müxtəlif zamanda baş verə bilərdi. Müəyyən vaxt keçəndən sonra hamıya məlum oldu ki, imam Hüseyn burada şəhid olacaq. Onda imam Hüseynin danışıq tərzi də dəyişildi və burda Hüseyn ibn Əlinin (ə) vəfalı əshabələrinin şəxsiyyətləri də özünü göstərir.

Fikrimcə, burda bir neçə cümlə Zeynəbi Kübradan danışmalıyam. Baxmayaraq ki, danışacağımız şeylər Zeynəbi Kübranın haqqından çox azdır. Doğurdan da, Kərbəla Zeynəbsiz Kərbəla ola bilməzdi. Aşura Zeynəbi Kübrasız tarixi bir hadisə olaraq qala bilməzdi. Əli(ə) qızının şəxsiyyəti bu hadisədə əvvəldən axıra kimi elə aşkar və təsirlidir ki, adam onu qadın cilvəsində Əlinin qızı olaraq ikinci Hüseyn kimi hiss edir. Əlbəttə, Zeynəb

olmasa idi, Aşura nə olardı, bəlkə də imam Səccad öldürülərdi, bəlkə də imam Hüseynin mesajı heç kəsə çatmazdı. Hüseyn ibn Əlinin şəhadətindən əvvəl də Zeynəb canıyanan dost kimi idi, Zeynəb o kəs idi ki, onunla imam Hüseyn özünü tək hiss etməzdi, onunla yorğunluq hiss etməzdi. İnsan Zeynəbin bu cür təsirini onun simasında, sözlərində və hərəkətlərində müşahidə edir.

İki dəfə Zeynəb həyəcan keçirib və bunu imam Hüseynlə bölüşüb. Birinci dəfə məntəqələrdən birində cənab Müslimin şəhadət xəbərini eşitdikdən sonra olub. İmam gəlib bəzi məsələləri danışdı, cürbəcür xəbərlər yetişirdi, nə də olsa, həzrət Zeynəb bir qadındır, cuşa gələn qadın hissləri ilə, incə qadın hisləri ilə. Xanımın hisslərinin cuşa gəlməsi peyğəmbər ailəsinə görə idi.

Bunu da deyim ki, güclü olmaqla yanaşı, qüdrətlə yanaşı, şücaətlə yanaşı, müsibətlərə qarşı müqavimətlə yanaşı, Əhli-beyt insanın incə duyğularının çeşməsi və insan mərhəmətinin təcəssümü hesab olunur. Hüseyn ibn Əlidən (ə) sizə bir misal çəkim: Çoxsaylı müxaliflərinin müqabilində, səhra ilə dolu olan ac canavarlar qarşısında tək müqavimət göstərən və bədəni qorxudan əsməyən imam Hüseyn bəzən kiçik işlərə görə halı dəyişir. Məsələn, həbəşdən olan qara dərili qul torpaq üstünə düşəndə həzrət onun başı üstünə gəlir. İndi, diqqət edin ki, o, qara dərili bir quldur, imamın xalis dostlarından biridir və Əbu Zərin də qulu olub[25], amma müsəlmanlar arasında olsa da, o dövrün ictimai və mədəni durumunu nəzərə alanda böyük məqam sahibi olmayıb, şərafətli və uca mövqeyə sahib olmayıb. O, öldürüləndə... Çoxları öldürülmüşdü; Küfənin böyük və tanınmış şəxsləri, Həbib ibn Məzair, Zuheyr ibn Qeyn və başqaları imam Hüseynin kənarında şəhid olmuşdular, torpağa düşmüşdülər, amma həzrət qara dərili qula göstərdiyi münasibəti onların heç birinə göstərməmişdi. Müslim ibn Övsəcə xitab edərək dedi: İnşallah, mükafatını Allahdan alasan, amma heç bir kəsi olmayan, övladı olmayan, intizarını çəkməyə, ona ağlamağa ailəsi olmayan bu qara dərili qulun Hüseyn ibn Əli yanına gəlir, (oğlu) Əli Əkbər üçün etdiyi davranışı təkrarlayır. Qulun başı üstündə oturur, onun qanlı başını dizləri üstünə qoyur, amma yenə ürəyi soyumur. Onda gördülər ki,

25 - Cövn ibn Huvayy adlı bu qul böyük səhabə Əbuzərin azad etdiyi quldur. Imam Əlinin şiələri kimi tanınırdı. Əbuzər Qəffari onu azad etdikdən sonra həmişə Əhli-betla birgə olub. O, avval imam Hasanin(a), sonra da imam Hüseynin xidmətində olub.

həzrət əyilib üzünü o qara qulun üzünə qoydu. Belədir insan duyğularının sərgilənməsi!

Buna görə, Zeynəb cuşa gələn duyğu və hisslərlə doludur, xüsusən də nəzərə alsaq ki, adi bir qadın deyil, imam Hüseynin bacısıdır, imam Hüseyni aşiqanə sevən bacıdır, həyat yoldaşından, ailəsindən ayrı düşüb imam Hüseynlə gələn bacıdır. Tək də gəlməmişdi, oğulları Ovn və Məhəmmədi də gətirmişdi. Mən ehtimal verirəm ki, Abdullah ibn Cəfər övladlarının gəlməsinə razı olmayıb, onun bu işə razı olduğuna inanmıram, amma Zeynəb onları özü ilə birgə olsunlar deyə gətirdi. Belə ki, Allah yolunda döyüş olsa, övladları da şəhid olsun. Sözü bura çatdırmaq istəyirdim ki, yolda məntəqələrin birində xanım Zeynəb vəziyyətin təhlükəli olduğunu hiss edib imam Hüseynə ərz etdi: Qardaş, mən vəziyyətin təhlükəli olduğunu hiss edirəm. Xanım Zeynəb bilir ki, məsələ şəhadət və əsirlik məsələsidir, amma hadisələrin həyəcanı onu elə təzyiq altına salır ki, imam Hüseynə müraciət edir. Burada imam Hüseyn ona qısa cavab verir. Deyir: Narahat olma, Allah nə istəsə, o da olacaq, təqribən ما شاء الله كان - sözünə oxşayır, yəni Allah istədiyi olacaq dedi. İmamın bu cavabından sonra, daha həzrət Zeynəbin(s) imam Hüseynə yenidən nə isə dediyini və ya sual etdiyini, ya da ruhunda çətinlik hiss edib onu imam Hüseynə söylədiyini görmürük. Ancaq Aşura axşamı bu, bir daha təkrarlanır.

Aşura gecəsinin əvvəlində, bu, o gecədir ki, Zeynəbi Kübra(s), demək olar, qəm-qüssənin şiddətindən əldən düşdür. İmam Səccad - o, xəstə idi və hadisəni özü nəql edir nəql edir ki, mən xeymədə uzanmışdım, bibim Zeynəb də kənarımda oturub mənə xidmət göstərirdi. Atamın, həzrət Əbu Əbdillahın xeyməsi kənarımızda idi. Atam oturmuşdu və Əbu Zərin qulu Cövn imamın qılıncını hazırlayırdı, özlərini sabah qarşıda olan döyüşə hazırlayırdılar. Birdən atamın nə isə zümzümə etdiyini və şer oxuduğunu eşitdim. Şerin məzmunu belə idi: Dünya arxasını çevirib, ömür insana vəfa etməyəcək və ölüm də yaxındır.

يا دَهرُ أُفٍ لَكَ مِن خَلِيلٍ كم لك بالإشراف والأصيل[26]

Bu, onu göstərir ki, şeri oxuyan kəs tezliklə dünyadan köçəcəyini bilir.

26 - Biharul-ənvar, 37-ci bab, hədis: 1, Ey zaman! Tfu sənin dostluğuna! Nə qədər gündüz axşam (haqqın) dostlarını öldürmüsən».

İmam Səccad buyurur ki, mən bu şeri eşitdim və onun məqsədini də başa düşdüm. Bildim ki, imam Hüseyn öz ölümündən xəbər verir. Amma özümü saxladım. Birdən bibim Zeynəbin çox narahat olduğunu gördüm. Durub qardaşının xeyməsinə getdi. Dedi: Əziz qardaş! Görürəm, ölüm xəbərini verirsən. Bizim indiyə qədər könlümüz səninlə xoş, rahat idi. Atam dünyadan gedəndə dedim qardaşlarım var, qardaşım imam Həsən şəhadətə yetəndə dedim qardaşım Hüseyn var. İllərdir ki, könlümüz səninlə xoşdur, sənə güvənirdim, bu gün sənin də öz ölüm xəbərini verdiyini görürəm.

Əlbəttə, Zeynəbi Kübranın narahat olmağa haqqı vardı.

Belə təsəvvür edirəm ki, o günün vəziyyəti Zeynəb üçün müstəsna bir gün idi. Qadınlardan heç birisini, hətta imam Səccadı da xanım Zeynəbin vəziyyəti ilə müqayisə edə bilmərik. Zeynəbin vəziyyəti çox çətin və əldən salan idi.

Aşura günü bütün kişilər şəhadətə yetmişdi. Aşuranın günortasından sonra bütün xeymələrdə imam Səccaddan başqa bir kişi qalmamışdı. O həzrət də xəstə halda bir qıraqda yataq düşmüşdü, bəlkə də komada idi.

İndi, siz təsəvvür edin ki, bu xeymələrdə 80-84 nəfər qadın və uşaq bir dərya düşmənlə mühasirədədirlər. Nə qədər bunların işi ağırdır?!

Bəziləri susuz, bəziləri də acdırlar, ya da demək olar, hamısı susuz, hamısı da acdırlar.

Hamısının ürəkləri qorxu içində, şəhidlərin cənazələri torpaq üzərinə sərilib, bunlardan bəziləri onların qardaşları, bəziləri isə övladlarıdırlar.

Hər halda, çox acı və çox qorxulu hadisədir. Bir nəfər bu cəmiyyəti idarə etməlidir. O bir nəfər də Zeynəbdir.

Zeynəbin işi ancaq qardaşını əldən verməsi ilə, ya iki övladının və ya digər qardaşlarının, yaxud da bir belə əzizlərinin- 18 nəfər Bənihaşim cavanlarını və vəfadar səhabələri əldən verməsi ilə qurtarmırdı. Bəli, bu, ona çətin idi, amma digər ağır işi bu qədər düşmənlərin içində əsir düşmüş böyük dəstəni, mənən sınmış, pərakəndə, pərəm-pərəm olmuşları idarə etmək

və onları qorumaq idi. Hətta imam Səccadı da o idarə etməli idi.

Odur ki, əsirlərin karvanı yola düşəndə, düşmənin əsirlərlə nə edəcəyi bəlli olduqda, bu ağır, çətin hadisələrlə yanaşı həzrət Zeynəbin bir neçə saat Kərbəla hadisəsindən sonra qaranlıq və soyuq bir gecəsi də olub.

Allah bilir ki, Zeynəbi Kübraya necə ağır keçib. Bu bir neçə saatda Zeynəb daim hərəkətdə olub. Bu uşağın, o qadının yanına qaçıb, bu müsibət görmüş ananın yanına, qardaşın əldən verən o bacının yanına, o balaca uşağın yanına, daim bunların arasında oyana- buyana hərəkət edib. Onları bir yerə toplayıb ürək-dirək verib. Amma bir anda Zeynəbin də taqəti bitir. Qardaşına xitab edir, şəhid qardaşına üzünü tutur. Axı, onun yeganə ümidi və pənahgahı o idi. Hədisdə nəql olunur ki, Zeynəbi Kübra qardaşının cənazəsinin, tikə-tikə olmuş bədəninin üstünə gəlib dayanır və يا مُحَمَّداه صَلَّى عَلَيْكَ مَلائِكَةُ السَّماءِ[27] ürakdan faryad edir Ey caddimiz! Ey peyğəmbər! Göylərin mələkləri sənə salam göndərsin «هذَا الحُسَيْنُ مُرَمَّلُ بِالدماء bu qanına bulaşmış sənin Hüseynindir...

27 - Luhuf, (في وصف حال القتال وما يقرب من تلك الحال)

لا حول ولا قوة إلا بالله العلي العظيم

İlahi! Kərbəla şəhidlərinin qanı hörmətinə, bizi Hüseynin və Aşuranın davamçılarından qərar ver.

İlahi! Dünya müsəlmanlarını ayılt və hamısını Hüseyn davamçısı eylə.

İlahi! Məhəmməd və ali Məhəmmədin hörmətinə, bu İslam hökumətini, Hüseyn yadigarı, Hüseynin və onun davamçılarının qanı ilə əldə olunan İslam cümhuriyyətini imam Mehdinin zühuruna qədər qoru.

İlahi! Bizi hidayət et. Allahım! Bizə yardımçı ol. Allahım! Düz yolları bizə göstər. Allahım! Müşküllərimizi, çətinliklərimizi aradan qaldır, düşmənlərimizi məhvi-nabud et, müxtəlif qələbələri bizə nəsib et.